# BEŞİNCİ ÇAĞIRIŞ
# AZƏRBAYCAN RESPUBLİKASI
# MİLLİ MƏCLİSİNİN
# XI SESSİYASI İCLASININ

# PROTOKOLU № 84

*Milli Məclisin iclas salonu.*
*7 dekabr 2018-ci il.*

*İclasa Azərbaycan Respublikası Milli Məclisinin Sədri* ***O.Əsədov*** *sədrlik etmişdir.*

**İclasda Milli Məclisin 105 deputatı iştirak etmişdir.**

| | |
|---|---|
| **Qeydiyyat** | (saat 12.03 dəq.) |
| İştirak edir | 99 |
| Yetərsay | 83 |

**İclasın gündəliyinə aşağıdakı məsələlər daxil idi:**

1. "Normativ hüquqi aktlar haqqında" Azərbaycan Respublikasının Konstitusiya Qanununda dəyişiklik edilməsi barədə Konstitusiya Qanunu haqqında (ikinci səsvermə).
2. "Aviasiya haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi haqqında (üçüncü oxunuş).
3. "Dövlət borcu haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi haqqında (üçüncü oxunuş).
4. Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsində dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi barədə (üçüncü oxunuş).

5. Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi barədə (üçüncü oxunuş).

6. “İnzibati icraat haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi haqqında (üçüncü oxunuş).

7. Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi barədə (üçüncü oxunuş).

8. Psixoloji yardım haqqında Azərbaycan Respublikası qanununun layihəsi barədə (üçüncü oxunuş).

9. “Dövlət qulluğu haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi haqqında.

10. “Uşaq hüquqları haqqında” və “Qaçqınların və məcburi köçkünlərin (ölkə daxilində köçürülmüş şəxslərin) statusu haqqında” Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi haqqında.

11. “Sahibkarlıq fəaliyyəti haqqında” və “Çayçılıq haqqında” Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi haqqında.

12. “Avtomobil yolları haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi haqqında.

13. “Azərbaycan Sərhəd Mühafizəsinin 100 illiyi (1919–2019)” Azərbaycan Respublikasının yubiley medalının təsis edilməsi ilə əlaqədar “Azərbaycan Respublikasının orden və medallarının təsis edilməsi haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi haqqında (ikinci oxunuş).

14. “Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi haqqında (ikinci oxunuş).

15. Azərbaycan Respublikasının Mənzil Məcəlləsində dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi barədə (ikinci oxunuş).

16. Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi barədə (ikinci oxunuş).

17. “Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi haqqında (ikinci oxunuş).

18. Azərbaycan Respublikasının Seçki Məcəlləsində dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi barədə (ikinci oxunuş).

19. Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi barədə (ikinci oxunuş).

20. “Avtomobil nəqliyyatı haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi haqqında (ikinci oxunuş).

21. “Sığorta fəaliyyəti haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi haqqında (ikinci oxunuş).

**Aşağıdakı məsələlər müzakirə edilmişdir:**

**Gündəlik haqqında.**

**Çıxış etmişlər:** Oqtay Əsədov, Əli Hüseynli, Bəxtiyar Əliyev, Fazil Mustafa, Zahid Oruc, Fərəc Quliyev, Aqil

Abbas, Sahib Alıyev, Musa Qasımlı, Siyavuş Novruzov, İsa Həbibbəyli, Cavid Qurbanov, Araz Əlizadə

**Təklif:** Gündəlik qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 12.04 dəq.) |
|---|---|
| Lehinə | 98 |
| Əleyhinə | 1 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 99 |

Nəticə: Qəbul edildi

**1. "Normativ hüquqi aktlar haqqında" Azərbaycan Respublikasının Konstitusiya Qanununda dəyişiklik edilməsi barədə Konstitusiya Qanunu haqqında (ikinci səsvermə).**

**Çıxış etmişlər:** Oqtay Əsədov, Valeh Ələsgərov

**Təklif:** Qanun qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 12.48 dəq.) |
|---|---|
| Lehinə | 99 |
| Əleyhinə | 2 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 101 |

Nəticə: Qəbul edildi

**2. "Aviasiya haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi haqqında (üçüncü oxunuş).**

**Çıxış etmişdir:** Oqtay Əsədov

**Təklif:** Qanun qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 12.49 dəq.) |
| Lehinə | 101 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 101 |

Nəticə: Qəbul edildi

**3. "Dövlət borcu haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi haqqında (üçüncü oxunuş).**

**Çıxış etmişlər:** Oqtay Əsədov, Ziyad Səmədzadə

**Təklif:** Qanun qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 12.50 dəq.) |
| Lehinə | 100 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 100 |

Nəticə: Qəbul edildi

**4. Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsində dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi barədə (üçüncü oxunuş).**

**Çıxış etmişlər:** Oqtay Əsədov, Əli Hüseynli

**Təklif:** Qanun qəbul edilsin

**Səsvermənin nəticələri** (saat 12.51 dəq.)

| | |
|---|---|
| Lehinə | 100 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 100 |

Nəticə: Qəbul edildi

**5. Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi barədə (üçüncü oxunuş).**

**Çıxış etmişlər:** Oqtay Əsədov, Əli Hüseynli

**Təklif:** Qanun qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 12.52 dəq.) |
|---|---|
| Lehinə | 99 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 100 |

Nəticə: Qəbul edildi

**6. “İnzibati icraat haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi haqqında (üçüncü oxunuş).**

**Çıxış etmişlər:** Oqtay Əsədov, Əli Hüseynli

**Təklif:** Qanun qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 12.53 dəq.) |
|---|---|
| Lehinə | 98 |
| Əleyhinə | 0 |

| | |
|---|---|
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 99 |

Nəticə: Qəbul edildi

**7. Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi barədə (üçüncü oxunuş).**

**Çıxış etmişdir:** Oqtay Əsədov

**Təklif:** Qanun qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 12.54 dəq.) |
|---|---|
| Lehinə | 101 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 101 |

Nəticə: Qəbul edildi

**8. Psixoloji yardım haqqında Azərbaycan Respublikası qanununun layihəsi barədə (üçüncü oxunuş).**

**Çıxış etmişlər:** Oqtay Əsədov, Əhliman Əmiraslanov

**Təklif:** Qanun qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 12.56 dəq.) |
|---|---|
| Lehinə | 100 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 100 |

Nəticə: Qəbul edildi

**9. "Dövlət qulluğu haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi haqqında.**

**Çıxış etmişlər:** Oqtay Əsədov, Əli Hüseynli

**Təklif:** Qanun qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 12.57 dəq.) |
| Lehinə | 101 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 101 |

Nəticə: Qəbul edildi

**10. "Uşaq hüquqları haqqında" və "Qaçqınların və məcburi köçkünlərin (ölkə daxilində köçürülmüş şəxslərin) statusu haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi haqqında.**

**Çıxış etmişlər:** Oqtay Əsədov, Aqiyə Naxçıvanlı

**Təklif:** Qanun qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 13.00 dəq.) |
| Lehinə | 100 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 100 |

Nəticə: Qəbul edildi

**11. "Sahibkarlıq fəaliyyəti haqqında" və "Çayçılıq haqqında" Azərbaycan Respublikasının qanunlarında**

**dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi haqqında.**

**Çıxış etmişlər:** Oqtay Əsədov, Ziyad Səmədzadə, Eldar İbrahimov

**Təklif:** Qanun qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 13.03 dəq.) |
| Lehinə | 99 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 99 |

Nəticə: Qəbul edildi

**12. “Avtomobil yolları haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi haqqında.**

**Çıxış etmişlər:** Oqtay Əsədov, Ziyad Səmədzadə, Əflatun Amaşov

**Təklif:** Qanun qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 13.10 dəq.) |
| Lehinə | 93 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 93 |

Nəticə: Qəbul edildi

**13. “Azərbaycan Sərhəd Mühafizəsinin 100 illiyi (1919–2019)” Azərbaycan Respublikasının yubiley medalının təsis edilməsi ilə əlaqədar “Azərbaycan Respublikasının orden və medallarının təsis edilməsi haq-**

**qında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi haqqında (ikinci oxunuş).**

**Çıxış etmişlər:** Oqtay Əsədov, Əli Hüseynli

**Təklif:** Layihə ikinci oxunuşda əsas kimi qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 13.11 dəq.) |
|---|---|
| Lehinə | 93 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 93 |

Nəticə: Qəbul edildi

**Təklif:** Layihə ikinci oxunuşda qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 13.12 dəq.) |
|---|---|
| Lehinə | 89 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 2 |
| İştirak edir | 91 |

Nəticə: Qəbul edildi

**14. "Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi haqqında (ikinci oxunuş).**

**Çıxış etmişlər:** Oqtay Əsədov, Əli Hüseynli

**Təklif:** Layihə ikinci oxunuşda əsas kimi qəbul edilsin

**Səsvermənin nəticələri** (saat 13.13 dəq.)

| | |
|---|---|
| Lehinə | 96 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 96 |

Nəticə: Qəbul edildi

**Təklif:** Layihə ikinci oxunuşda qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 13.13 dəq.) |
|---|---|
| Lehinə | 95 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 95 |

Nəticə: Qəbul edildi

**15. Azərbaycan Respublikasının Mənzil Məcəlləsində dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi barədə (ikinci oxunuş).**

**Çıxış etmişlər:** Oqtay Əsədov, Əli Hüseynli, Ziyafət Əsgərov, Zahid Oruc, Fərəc Quliyev, Araz Əlizadə

**Təklif:** Layihə ikinci oxunuşda əsas kimi qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 13.15 dəq.) |
|---|---|
| Lehinə | 90 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 90 |

Nəticə: Qəbul edildi

**Təklif:** Layihə  qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 13.25 dəq.) |
| Lehinə | 84 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 84 |

Nəticə: Qəbul edildi

**Təklif:** Layihə ikinci oxunuşda qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 13.25 dəq.) |
| Lehinə | 89 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 90 |

Nəticə: Qəbul edildi

**16. Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi barədə (ikinci oxunuş).**

**Çıxış etmişlər:** Ziyafət Əsgərov, Əli Hüseynli

**Təklif:** Layihə ikinci oxunuşda əsas kimi qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 13.26 dəq.) |
| Lehinə | 87 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 87 |

Nəticə: Qəbul edildi

**Təklif:** Layihə  qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 13.27 dəq.) |
| Lehinə | 84 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 84 |

Nəticə: Qəbul edildi

**Təklif:** Layihə ikinci oxunuşda qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 13.27 dəq.) |
| Lehinə | 87 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 87 |

Nəticə: Qəbul edildi

**17. "Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi haqqında (ikinci oxunuş).**

**Çıxış etmişlər:** Ziyafət Əsgərov, Əli Hüseynli

**Təklif:** Layihə ikinci oxunuşda əsas kimi qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 13.28 dəq.) |
| Lehinə | 89 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 89 |

Nəticə: Qəbul edildi

**Təklif:** Layihə ikinci oxunuşda qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 13.29 dəq.) |
| Lehinə | 89 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 90 |

Nəticə: Qəbul edildi

**18. Azərbaycan Respublikasının Seçki Məcəlləsində dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi barədə (ikinci oxunuş).**

**Çıxış etmişlər:** Ziyafət Əsgərov, Əli Hüseynli

**Təklif:** Layihə ikinci oxunuşda əsas kimi qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 13.31 dəq.) |
| Lehinə | 91 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 91 |

Nəticə: Qəbul edildi

**Təklif:** Layihə qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 13.31 dəq.) |
| Lehinə | 88 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 88 |

Nəticə: Qəbul edildi

**Təklif:** Layihə ikinci oxunuşda qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 13.32 dəq.) |
|---|---|
| Lehinə | 86 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 86 |

Nəticə: Qəbul edildi

**19. Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi barədə (ikinci oxunuş).**

**Çıxış etmişlər:** Ziyafət Əsgərov, Əli Hüseynli

**Təklif:** Layihə ikinci oxunuşda əsas kimi qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 13.33 dəq.) |
|---|---|
| Lehinə | 89 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 89 |

Nəticə: Qəbul edildi

**Təklif:** Layihə qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 13.34 dəq.) |
|---|---|
| Lehinə | 88 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 2 |
| İştirak edir | 90 |

Nəticə: Qəbul edildi

**Təklif:** Layihə ikinci oxunuşda qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 13.34 dəq.) |
| Lehinə | 88 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 88 |

Nəticə: Qəbul edildi

**20. "Avtomobil nəqliyyatı haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi haqqında (ikinci oxunuş).**

**Çıxış etmişlər:** Ziyafət Əsgərov, Ziyad Səmədzadə, Qüdrət Həsənquliyev

**Təklif:** Layihə ikinci oxunuşda əsas kimi qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 13.36 dəq.) |
| Lehinə | 91 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 91 |

Nəticə: Qəbul edildi

**Təklif:** Layihə qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 13.38 dəq.) |
| Lehinə | 93 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 93 |

Nəticə: Qəbul edildi

**Təklif:** Layihə ikinci oxunuşda qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 13.39 dəq.) |
|---|---|
| Lehinə | 89 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 90 |

Nəticə: Qəbul edildi

**21. "Sığorta fəaliyyəti haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi haqqında (ikinci oxunuş).**

**Çıxış etmişlər:** Ziyafət Əsgərov, Ziyad Səmədzadə

**Təklif:** Layihə ikinci oxunuşda əsas kimi qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 13.41 dəq.) |
|---|---|
| Lehinə | 94 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 2 |
| İştirak edir | 96 |

Nəticə: Qəbul edildi

**Təklif:** 96.1–96.9-cu maddələr qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 13.42 dəq.) |
|---|---|
| Lehinə | 93 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 94 |

Nəticə: Qəbul edildi

**Təklif:** 97.3.7, 97.3.8, 102.2.10, 102.2.11 və 106.1.8-ci maddələr çıxarılsın, 107.1.7.1, 108.8, 109.1 və 112.1.2-ci maddələr qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 13.43 dəq.) |
| --- | --- |
| Lehinə | 95 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 95 |

Nəticə: Qəbul edildi

**Təklif:** Layihə ikinci oxunuşda qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 13.44 dəq.) |
| --- | --- |
| Lehinə | 94 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 94 |

Nəticə: Qəbul edildi

**Azərbaycan Respublikası**
**Milli Məclisinin Sədri** **O.ƏSƏDOV**

# *MİLLİ MƏCLİSİN İCLASI*

*7 dekabr 2018-ci il. Saat 12.*

*Azərbaycan Respublikası Milli Məclisinin Sədri*
***Oqtay Əsədov** sədrlik edir*

**Sədrlik edən.** Xoş gördük, hörmətli deputatlar. Xahiş edirəm, qeydiyyatdan keçəsiniz.

| **Qeydiyyat** | (saat 12.03 dəq.) |
|---|---|
| İştirak edir | 99 |
| Yetərsay | 83 |

Çox sağ olun, yetərsay var. İclasımıza başlaya bilərik. Gündəlik sizə paylanıb. Xahiş edirəm, gündəliyə münasibət bildirək.

| **Səsvermənin nəticələri** | (saat 12.04 dəq.) |
|---|---|
| Lehinə | 98 |
| Əleyhinə | 1 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 99 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun. Gündəlik təsdiq edildi.

Hörmətli millət vəkilləri, bildiyiniz kimi, bu gün – dekabrın 7-də Azərbaycan parlamentinin ilk iclası olmuşdu, bu il parlamentin yaranmasının 100 illiyidir. Bu münasibətlə sizi təbrik edirəm!

Gündəlikdə 21 məsələ var. Mən hesab edirəm ki, bu gün müzakirələri keçirməyə imkan olacaq. Kim müzakirədə iştirak eləmək istəyirsə, xahiş edirəm, yazılsın. Əli Hüseynli buyursun.

**Ə.Hüseynli.** Çox sağ olun, hörmətli cənab Sədr. Həqiqətən də, bu gün – 7 dekabr Azərbaycanın tarixində, parlamentarizm tarixində mühüm günlərdən biridir. Cənab Sədr, Sizin tövsiyələriniz, rəhbərliyiniz ilə biz 100 illiyimizi möhtəşəm, təntənəli şəkildə qeyd etdik. Tədbirlər hələ də davam etməkdədir.

Amma söz almaqda məqsədim bu günlərdə Azərbaycanın tarixi torpaqları olan İrəvan şəhərində Rusiya Federasiyası Dövlət Dumasının üzvü Konstantin Zatulinin təşəbbüsü ilə yaradılmış “Lazarev klubu”nun iclası ilə bağlıdır. Məlumdur ki, hazırda Azərbaycan və Rusiya dövlət başçılarının həyata keçirdiyi siyasət nəticəsində ölkələrimiz və xalqlarımız arasında münasibətlər bütün sahələr üzrə inkişaf etməkdədir. Bu siyasi münasibətlər, eyni zamanda, ictimai proseslərə də müsbət təsir göstərib. Təsadüfi deyil ki, son dövrlərdə Rusiyanın siyasi elitasını təmsil edən bir çox politoloqlar, siyasət adamları, hərbi ekspertlər müxtəlif formatlarda Azərbaycanda səfərlərdə olmuşlar, Rusiya ilə münasibətlər ilə, bizim hərbi əməkdaşlığımızla, o cümlədən Azərbaycanın ərazi bütövlüyü, Qarabağın Azərbaycanın tarixi torpağı olması ilə bağlı fikirlər səsləndirmişlər.

Hesab edirik ki, Zatulinin “Lazarev klubu”nu yarat-

maqla bağlı təşəbbüsü görülən bu işlərə, Rusiyanın bir çox ekspertlərinin, tanınmış insanlarının obyektiv münasibətinə uğursuz bir cavab cəhdidir. Görün, vəziyyət necədir ki, bu klubun tədbiri ilə bağlı Ermənistanın armeni.im saytı da belə qiymət verir: "Lazarev klubu" Rusiya–Ermənistan müansibətlərində nəinki müalicəedici, ağrıkəsici effekti xatırladır. Çünki bu münasibətləri indiki durumda sağlamlaşdırmaq mümkün deyil. Hesab edirik ki, bu tədbir reallıqda soyuq olan Rusiya–Ermənistan münasibətlərinə, sadəcə, pozitiv bir ruh vermək cəhdindən başqa bir şey deyil.

Bu tədbirin keçirilməsi və səslənən fikirlər Rusiyanın rəsmi mövqeyi olmamasına baxmayaraq, tədbirdə Rusiya tərəfindən iştirak edən ekspertlər əsas etibarı ilə zamanında Qorbaçovun, Yeltsinin komandasında olmuş siyasət adamları, siyasi korrupsiyaya qurşanmış ermənipərəst ekspertlər idi. Bizim bu tədbirə, əlbəttə ki, adekvat münasibətimiz var. Təsadüfi deyil ki, Azərbaycanın Xarici İşlər Nazirliyi də bu məsələ ilə bağlı narazılığını bildirmişdi, bizim həmkarlarımız da mətbuatda öz fikirlərini bildirirlər.

Uzun illərdir ki, Konstantin Zatulin erməni lobbiçiliyi ilə məşğuldur və əgər o, Rusiya Federasiyası Dövlət Dumasında sıravi bir deputat olsa idi, bəlkə də bizi narahat etməzdi. O, həm Rusiya Federasiyası Dövlət Dumasının MDB işləri üzrə komitəsinin sədr müavinidir, həm də hakim "Yedinaya Rossiya" partiyasının üzvüdür. O, Azərbaycan ilə, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı qərəzli mövqeyini əvvəllər də bildirib. Bakıda və Moskvada həmkarlarımızla görüşdə biz bu məsələni qaldırmışıq, öz səviyyəmizdə müzakirə eləmişik.

Cənab Sədr, hazırda hər iki ölkənin prezidentlərinin siyasətinə uyğun olaraq parlament münasibətləri də

yüksələn istiqamətdə inkişaf etməkdədir və ona görə təklif edirəm ki, bu məsələ ilə bağlı Sizin səviyyənizdə Rusiya Federasiyası Dövlət Dumasının Sədrinə məktub ünvanlansın. Çünki vəziyyətin bu cür davam etməsi, əlbəttə ki, yolverilməzdi. Belə hallar həm bizim rəsmi münasibətlərimizə, həm də Azərbaycan–Rusiya münasibətlərinə xələl gətirməməlidir.

Təəssüf doğurucu hal ondan ibarətdir ki, "Lazarev klubu"nun müzakirəsi zamanı Qars müqaviləsi, Naxçıvan ilə bağlı iddialar da müzakirə predmeti olmuşdur. Bu, çox böyük təəssüf doğurur, çünki o dövrdə – 1921-ci ildə Qars müqaviləsi ondan əvvəlki Moskva müqaviləsinin icrası ilə əlaqədar bağlanmışdı və məhz o zaman Sovet

Rusiyası ilə Türkiyə arasında sıx dostluq münasibətləri mövcud idi. İndi tarix təkrarlanıb, daha obyektivdir, olduğu kimidir və bu dostluq münasibətləri indi də davam edir. Rusiyalı ekspertlər bilməlidirlər ki, onlar bu cür tədbirlərlə mövcud olan Rusiya–Türkiyə münasibətlərinə də xələl gətirirlər.

Moskva müqaviləsi ilə bağlı SSRİ 1945-ci ildə Böyük Vətən Müharibəsindən qalib çıxandan sonra Türkiyəyə qarşı torpaq iddiaları qaldırmışdı, amma 1953-cü ildə buna son qoyuldu, bu iddialardan birdəfəlik əl çəkildi. Əgər zamanında SSRİ kimi qüdrətli bir dövlət bu iddiadan əl çəkibsə, Zatulin kimilər nə edə bilər? Azərbaycanın ayrılmaz tərkib hissəsi Naxçıvan heç bir zaman müzakirə predmeti ola bilməz. Buna zamanında da yol verilməyib və bunun heç bir beynəlxalq hüquqi əsası da yoxdur.

Eyni zamanda, cənab Sədr, mən xüsusi vurğulamaq istəyirəm ki, Rusiya Federasiyası Dövlət Dumasında da Rusiya–Azərbaycan parlamentlərarası dostluq qrupunun rəhbəri Dmitri Savelyev mətbuatda bu məsələ ilə bağlı

çıxış edib, onların obyektiv mövqeyini, Azərbaycanın ərazi bütövlüyü, Dağlıq Qarabağın Azərbaycanın ayrılmaz tərkib hissəsi olması ilə bağlı fikirlərini səsləndirib və fürsətdən istifadə edərək ona və Rusiyalı digər həmkarlarıma təşəkkürümü bildirirəm. Bir fikri də vurğulamaq istəyirəm ki, Zatulinin bu provokasiya məqsədli tədbiri ölkə prezidentləri cənab İlham Əliyev və Vladimir Putin tərəfindən həyata keçirilən strateji müttəfiqlik siyasətinə, xalqlarımız arasında ilbəil möhkəmlənən dostluq və qardaşlıq münasibətlərinə heç zaman xələl gətirə bilməz. Çox sağ olun.

**Sədrlik edən.** Çox sağ olun. Mən Zatulin haqqında çox danışa bilərəm, amma danışmaq istəmirəm. Çünki bu Zatulin hələ Rusiya Dumasının üzvü olmazdan əvvəl Azərbaycana qarşı ən düşmən mövqeli insanlardan biri idi. O, həmişə erməni diasporunun dəstəyi ilə çalışan bir adam olub, elə parlamentə  də erməni diasporunun dəstəyi ilə seçilib. Ancaq o hələ bir zamanlar MDB-yə aid olmayan, ancaq MDB-nin adını  daşıyan bir institut yaratmışdır. O institutun da indiki sədr müavini həmin “Lazarev  klubu”nun üzvü olan “Yevseyev” deyilən biridir. Bu MDB institutu indiyə kimi erməni diasporu tərəfindən maliyyələşdirilir. Mən siyahıya baxanda bir neçə rusdan başqa Rusiyada olan bütün erməni mənşəli vəzifəli adamların adlarını gördüm, yəni bu klubun üzvlərinin hamısı ermənilərdir. Lazarevin kökü də, bilirsiniz, erməni idi. O vaxt Azərbaycanda qırğınlar aparan Lazarev idi.

Bu məsələ bizə aydındır. Bir şey var ki, həqiqətən, belə cılız hərəkətlər ilə Azərbaycan–Rusiya münasibətlərini poza bilməz. Mən artıq Volodinə məktub yazmışam, öz fikirlərimi bildirmişəm. Güman edirəm ki, MDB komitəsinin sədr müavini olduğu üçün yəqin nəsə bir ölçü götürüləcək.

Buyursun Bəxtiyar Əliyev.

**B.Əliyev.** Hörmətli cənab Sədr, Siz də bu məsələyə çox geniş diqqət ayırdınız, Əli müəllim də yaxşı təhlil apardı. Mən bu məsələ ilə bağlı geniş çıxış etmək istəməzdim. Amma Zatulinin dünənki şərhi məni məcbur edir ki, bu barədə öz fikrimi söyləyim. Çünki burada qeyd edildiyi kimi, Yerevanda keçirilən və onun təşəbbüsü ilə yaradılmış "Lazarev klubu"nda bir dəstə ermənini Moskvadan Yerevana gətirmək, ora Robert Koçaryanı və tanınmayan separatçı rejimin rəhbəri Bako Saakyanı dəvət etmək və beləliklə də, hər hansı bir görüntü yaratmaq cəhdində bulunan Konstantin Zatulin həmin çıxışında deyir ki, 1994-cü ildə o, ilk dəfə Dağlıq Qarabağa Robert Koçaryanla bir vertolyotda gəlib.

Təsəvvür edin ki, bu adam ağır cinayətlərdə iştirak etmiş şəxs ilə Dağlıq Qarabağa gedir və bu gün oradan bəyan edir ki, Dağlıq Qarabağ ətrafındakı rayonları qətiyyən Azərbaycana qaytarmaq olmaz, Ermənistan yalnız Dağlıq Qarabağın müstəqilliyi uğrunda mübarizə aparmalıdır. Bununla da o, Düşənbədə əldə olunmuş və Rusiya Prezidentinin təşəbbüsü ilə bu istiqamətdə aparılan işlərə bir kölgə salmaq, bu işləri pozmaq cəhdində bulunur. Bu adam bu ilin yazında İrəvanda Paşinyana qarşı şüarlarla çıxış edib, indi isə Rusiya–Ermənistan münasibətlərini düzəltməyə çalışır. Bu gün əhalinin son siyahıya alınmasına görə, Ermənistanda rus millətindən 3–4 min insan qalıb, halbuki 100 mindən artıq insan yaşayıb. Orada bir nəfər də qalmayıb, hamı çıxıb gedir. Qalanlar da iş adamlarıdır.

Reallıq bundan ibarətdir ki, bu gün oradakı siyasi rejim dəyişir və bu fürsətdən istifadə edərək Zatulin və onun kimi hər zaman o qaranlıqda nədən isə yararlanmaq istəyənlər yenə də öz məqsədlərini güdürlər. Hesab edirəm ki,

çox ciddi narazılığımıza səbəb olan bu cür tədbirlərə artıq özümüz də münasibət bildirməliyik, Rusiya tərəfindən də münasibət bildirilməlidir. Çünki Azərbaycan–Rusiya münasibətləri yüksələn istiqamətdə, strateji tərəfdaşlıq səviyyəsində inkişaf edir, prezidentlərin mütəmadi səfərləri, görüşləri bunu bir daha göstərir.

Bu gün dünyada baş verən geosiyasi proseslərdən görünür ki, hələ də Rusiyada bəzi qüvvələr çalışırlar ki, Rusiya–Azərbaycan, Azərbaycan–Rusiya–Türkiyə, Azərbaycan–Rusiya–İran münasibətlərinə və ümumiyyətlə, geosiyasətə ciddi təsirlər göstərsinlər. Hesab edirəm ki, biz buna çox kəskin münasibətimizi, etirazımızı bildirməliyik və tələb etməliyik ki, Zatulinə, onun hərəkətlərinə lazımi siyasi qiymət verilsin. Diqqətinizə görə təşəkkür edirəm.

**Sədrlik edən.** Sağ olun. Fazil Mustafa.

**F.Mustafa.** Hörmətli Oqtay müəllim, hörmətli millət vəkilləri, mən də cümhuriyyətimizin, parlamentin yaranmasının 100 illiyi münasibəti ilə bütün deputat həmkarlarımı təbrik edirəm.

Mövzuya keçməzdən öncə mən deputat həmkarlarım hörmətli Əli Hüseynlinin və hörmətli Bəxtiyar Əliyevin fikirlərinə tam qoşularaq bir təklif də eləmək istəyirəm ki, Naxçıvanla bağlı qaldırılan iddialara münasibət məsələsində biz Türkiyə dövləti ilə də təmasa keçək və onlar da bu məsələyə öz münasibətini bildirsinlər. Çünki Qars müqaviləsinə görə, Türkiyənin də Naxçıvan üzərində təminat hüququ var və bu hüququn iştirakçısı, subyekti kimi Türkiyənin də bu məsələdə ən az Azərbaycanı dəstəkləyən mövqedən çıxış eləməsi faydalı olardı.

Oqtay müəllim, bu parlament, bilirsiniz ki, çox ağır bir şəraitdə açılıbdır. Dekabrın əvvəlində açılmalı idi. Sadəcə, rus və erməni milli şuraları mane oldular, açılmadı və

dekabrın 7-də açılış baş tutdu. Bu, böyük bir risk idi. Azərbaycanın böyük oğulları bu riskin altına girib, dövlətin quruculuğu istiqamətində ən mühüm addımı atdılar və bu insanların böyük əksəriyyəti şəhid oldu, repressiyaya uğradı, sürgünlərdə yatdı, mühacirətə getdi, lakin şərəfli tariximizin əsası qoyuldu. Oqtay müəllim, əgər məsləhət bilsəniz, mən çox istərdim, onların xatirəsini bir dəqiqəlik sükutla yad edək. Bu, hər halda onların xatirəsinə önəm verdiyimizi göstərən bir vəfa addımı olardı.

Digər tərəfdən, cümhuriyyətin yaranmasının 100 illiyi ilə bağlı biz 100 illik yubiley medalı ilə bağlı qanun qəbul elədik. Mən çox istərdim ki, bu gün, yaxud bu günlərdə, heç olmasa, parlamentin iclasında kimlərə medal təqdim olunacaqsa, onun burada təntənəli şəkildə verilməsi yerinə düşərdi. Çox istərdim ki, bu, İstiqlal Bəyannaməsinə imza atmış millət vəkillərinə, Azərbaycan parlamentində parlamentarizmə xidmət eləyən millət vəkillərinə verilsin, hətta cümhuriyyətin qurucularının varislərinə verilməsi təmin olunsun. Baxın, Məmmədəmin Rəsulzadənin nəvəsi Rəis Rəsulzadə böyük rəssamdır. İndiyə qədər də Azərbaycanın əməkdar rəssamıdır. Heç olmasa, 100 illik medal veriləydi, heç olmasa, "Xalq rəssamı" adı veriləydi. Bu gün bilirsiniz, tarixdə nə qalacaq? Azərbaycan Respublikasının Prezidenti onun müalicəsinə xüsusi həssaslıq göstərdi, dəstək verdi. Tarixdə bu qalacaq, yəni bu qayğı hər zaman xatırlanacaq. Biz də Prezidentin bu həssaslığını müxtəlif formalarda təkrar eləməyi özümüzə borc bilməliyik. Bu baxımdan da bu məsələlərdə, məncə, daha duyğusal davranmağımızla bərabər, vəfa borcu olan insanlar kimi davranmağa məhkumuq. O baxımdan mən təklif edirəm ki, bu kimi məsələlərə bir az diqqəti artıraq və bizim cümhuriyyət tariximizə nə dərəcə önəm verdi-

yimiz, parlamentin, bu gün oturduğumuz parlamentin haqqını o kişilərə borclu olduğumuzu hər zaman...

**Sədrlik edən.** Sağ olun. Zahid Oruc.

**Z.Oruc.** Hörmətli cənab Sədr, hörmətli həmkarlar! Cənab Sədr, mən Sizin başlatdığınız bu mövzunu, eyni zamanda, hörmətli Əli müəllimin və digər həmkarlarımın çox kəskin və haqlı etirazlarınızı bölüşürəm və düşünürəm ki, biz birinci növbədə onu dəyərləndiririk ki, Azərbaycanın regional mövqeyi möhkəmləndikcə uzun onillər ərzində müxtəlif ölkələrdə bizim ölkəmizin əleyhinə fəaliyyət aparanların mövqeyi sanki daralır. Onlar da dəyişən şəraitə adekvat, o siyasi biznes sahəsinin həyata keçirilməsi üçün müxtəlif addımlar atırlar.

"Lazarev klubu"nun təyinatını çox haqlı olaraq qeyd etdiniz. Mənim aləmimdə bu, siyasi bir biznes layihəsidir. Bundan əvvəl Qriboyedovun adını daşıyırdı. O şəxslərin tarixi ruhunu sanki dirçəltmək, təzədən o bölgədə həyata keçirmək istəyən adamlar var. Amma bu, birinci növbədə Rusiyanın özünün mənafeyinə zərbə vurur.

İkincisi, MDB üzrə komitədə müavin olmaq o anlama gələ bilərdi ki, obyektivlik göstərəsən, bu gün Rusiyanın yer aldığı hansısa təşkilatlarda bölgəyə təhlükəsizlik, əmin-amanlıq, yaxşı münasibətlər vəd eləyəsən. Ancaq bunlar sanki MDB-ni dağıtmaqla məşğuldurlar və mənim aləmimdə Zatulini, ya Kazimirovu keçmişdən gətirib müasir tədbirlərin baş yerində oturtmaq Rusiyanın özünün mənafeyinə zərbə vurur. Ermənistanda bu adamlar əvvəlki statusda, janrda qəbul olunurmu? Xeyr. Zatulinin 1 dekabr səfəri Koçaryanı, ya Sarkisyanı dirçəltməyə, diriltməyə xidmət edirdi. Yeni hakimiyyətin nümayəndələri bunu dərk edirlər. Diqqət edin, "Armenian record" saytında onun ünvanına çox kəskin ittihamlar yer alıb. Bunu

Azərbaycan saytları yazmayıb. Sadəcə bir sitatı söyləyim: "Keçmiş komsomolçu və xəbər daşıyan Zatulin bilməlidir ki, burada hakimiyyət dəyişib. Ermənistanı yağmalayıb, onu qarşısında köləyə çevirən qüvvələr bizi əvvəlki mütiliyə, köləliyə qaytara bilməyəcəklər". Diqqət edin, bu adamlar hiss edirlər ki, hətta Ermənistanın özündə həyata keçirilən fəaliyyət artıq müqavimət ilə qarşılanır.

Qeyd olunduğu kimi, Rusiya və Azərbaycan münasibətləri mənim aləmimdə son 30 ildə heç zaman bu qədər yaxşı olmayıb, eyni zamanda, Ermənistan–Rusiya münasibətləri heç vaxt indiki qədər pis olmayıb. Ermənistanın da, Rusiyanın da adından çıxış eləmək hüququ olmayan, amma bu məsələlər üzərində öz siyasətlərini yürütmək istəyənlər, əslində, bunu dərk eləyirlər ki, İlham Əliyev ilə Vladimir Putinin münasibətləri yaxşılaşdıqca, bu insanların mövqelərinə zərbə dəymiş olur. Ona görə də cənab Sədr, biz Milli Məclis olaraq parlament müstəvisində müraciətinizi qəbul edirik, müdafiə edirik. Mənə elə gəlir ki, Siz özünüz də Milli Məclisin iradəsini ifadə eləmisiniz, düz eləmisiniz və bu etirazlar öz nəticəsini verəcək. Çox sağ olun.

**Sədrlik edən.** Çox sağ olun. Fərəc Quliyev.

**F.Quliyev.** Sağ olun, cənab Sədr. Hörmətli həmkarlar, bu yaxın günlərdə Azərbaycan Xarici İşlər Nazirliyi, Ermənistan Xarici İşlər Nazirliyi və ATƏT-in Minsk qrupunun üzvləri birlikdə bir bəyanat qəbul elədilər. Burada yenə də Ermənistan tərəfi ATƏT-in Minsk qrupu vasitəsi ilə Azərbaycan tərəfindən, deyək ki, bir sakitçilik bəyanatı istəyirdi ki, biz məsələləri tezliklə həll eləmək üçün yenə də söz verək və onlar da düşmənçiliyini yenə davam elətdirsinlər. Yerevandakı məlum toplantıda Kazimirov da çıxış eləyib. O da bir vaxtlar ATƏT-in Minsk

qrupunda Rusiyanı təmsil edirdi. İndi göründüyü qədər, zahirən bunların da davranışlarının bir olmasına baxmayaraq, institutlaşmış şəkildə Azərbaycana qarşı mövqe sərgiləyirlər. Biz də, xarici işlər nazirlərimiz və ya digər strukturlar məsələləri sülh yolu ilə həll edəcəyik və buna sadiqik. Elə "bu status-kvoda qalsın" deyə danışmağımız, təbii ki, bizim xeyrimizə işləməyəcək. Ona görə təklif edirəm ki, iki məsələ ilə bağlı müzakirə aparılmalıdır. Birincisi, torpaqların geri qaytarılması üçün inteqrasiya haqqında qanunun qəbul olunması və konvensiyalarda göstərilən bütün üsullarla bağlı, – mən bunu bir dəfə burada da qaldırmışdım, – məsələn, partizan hərəkatı ilə bağlı olan məsələlərin qanuniləşdirilməsi ilə əlaqədar müzakirələrin aparılması çox vacibdir.

İkincisi, indiyə qədərki atəşkəs haqqında bizim fərqli mövqeyimiz olmalıdır. Biz hansı atəşkəsdən danışmalıyıq? Bizim ərazilərimiz işğal olunub və bundan sonra "biz daha atəş atmayacağıq" deməliyik. Biz o vaxt atəşkəs elan eləməliyik ki, düşmən tərəf sərhədlərinə çəkilsin. Bundan sonra düşmən tərəfə atəş açmamaq haqqında öhdəlik götürə bilərik. Biz indi atəş açmalıyıq, atəş dayanmamalıdır. Mən hesab edirəm ki, biz o zaman atəşkəs haqqında razılaşmaya ona görə çatmışdıq ki, müəyyən dövr ərzində ATƏT-in Minsk qrupu və başqaları müəyyən işlər görürdülər. Yoxsa ki, Qarabağda erməni təyyarələri hərbi təlim keçirlər. Bizim Müdafiə Nazirliyi tərəfindən də bəyanat oldu ki, əgər təmas xəttində bir təhlükə törədərlərsə, yaxud xətti keçərlərsə, onları vuracağıq. Mən başa düşmürəm, bizim sərhəd xəttimiz təmas xəttidir? Əgər düşmən dövlətin vasitələri bizim sərhədləri keçirsə, onlar, təbii ki, vurulmalıdır. Ona görə çox kəskin şəkildə və xüsusilə də parlamentin yubileyi dönəmində Qarabağla, işğal olmuş

ərazilərimizlə bağlı ortaya çox fərqli şəkildə mövqelər qoymalıyıq, çox fərqli şəkildə yanaşmalarımız olmalıdır və düşmən tərəf də başa düşməlidir ki, biz bu məsələlərlə barışmırıq.

Büdcə müzakirələri oldu. Büdcədə müharibə ilə bağlı heç bir şey hiss olunmadı. Büdcədən barıt iyi gəlmədi. Biz orada – itirilmiş ərazilərimizdə hər il nə qədər vəsait itiririk, göstərilmədi. Deputat həmkarımız Xanhüseyn Kazımlının rəhbərliyi ilə hesablamalar var idi. Hər il büdcəyə daxil eləmək olar ki, biz hər il bu qədər vəsait itiririk. Bu gələcəkdə təzminat məsələsində qaldırılsın. Ona görə mən xahiş edirəm ki, bu iki məsələnin müzakirəsi münasib vaxtların birində gündəliyə salınsın. Təşəkkür edirəm.

**Sədrlik edən**. Sağ olun. Aqil Abbas.

**A.Abbas**. Təşəkkür edirəm, hörmətli Sədr. Məndən əvvəl dedilər, mən də 100 illiklə bağlı Siz başda olmaqla, bütün həmkarlarımızı təbrik edirəm, eyni zamanda, məndən əvvəl danışanların da danışdıqlarına qoşuluram.

Mən başqa bir məsələyə toxunmaq istəyirəm. Bəlkə elə də ciddi məsələ deyil. Hörmətli Sədr, erməni ilə vuruşa bilmirik, Allah qoysa, cavablarını verəcəyik. Heç olmasa, öz televiziyalarımızla birtəhər vuruşa bilsəydik, çox işlərimiz yoluna düşərdi. Möhtərəm Sədr, bu gün Azərbaycan televiziyaları, – AzTV, Mədəniyyət və İctimai Televiziyanı kənara qoyuruq, nə yaxşı ki, bunlar var, – özəl kanallar bu millətə nəyi aşılayır və nələri meydana çıxarır? Hörmətli cənab Ramiz Mehdiyev də bu məsələyə toxunmuşdu, hörmətli Əli Həsənov da böyük məqalələrlə çıxış eləmişdi. O dəqiqə deyirlər ki, senzura tətbiq edirlər. Dünyanın bütün ölkələrində televiziyaları qapatma cəzaları var. Elə qardaş Türkiyədə bu cəza növü var. Bir gün, bir həftə, hətta bir ay.

Bu gün Azərbaycan televiziyalarında Azərbaycan xalqını elə təqdim edirlər ki, bütün dünya baxanda deyir, doğrudanmı, yer üzündə bu qədər mənfi bir millət yaşayır?! Kimsə kiminsə başını qırxır, qaynana gəlinlə dalaşır... Müzakirələr yalnız bunlardır. Həkim məsləhətləri, dərmanlar, filan – bunların qarşısını almaq lazımdır. Necə ki bizdə Mətbuat Şurası qara bir sıyahı tutur, heç olmasa, onlara cəza verilir. Hətta mən hüquq mühafizə orqanlarına müraciət edirəm, Milli Teleradio Şurasına belə bir səlahiyyət verilməlidir. Heç olmasa, bir gün biri cəzalandırılsın, cərimə tətbiq edilsin.

Hansı kanalı açırsan, kimsə kiminlə nə bilim nə... Bütün kanallar yalnız bununla məşğuldur, kimi isə, nəyi isə axtarırlar. İfadəmdən üzr istəyirəm, televiziya əxlaqsızlığı yayır, insanların beynini yorur. Bayaq Gövhər xanım deyir ki, rus dilində məktəblər lazım deyil. Camaat uşağını rus dilində oxudur ki, heç olmasa, rus televiziyasına baxa bilsin. Uşaqlar Azərbaycan televiziyasına baxıb nə öyrənəcəklər? Bu gün ən böyük problem hansı isə bir hadisənin müzakirəsi mövzusudur. Qarabağ da yaddan çıxıb.

Hörmətli Sədr, mən çox xahiş edərdim ki, Milli Teleradio Şurasına bu məsələ ilə bağlı belə bir hüquq verilsin, dünya buna “senzura” deyə bilməz, çünki bu qanun bütün ölkələrdə var. Diqqətinizə görə təşəkkür edirəm.

**Sədrlik edən**. Sağ olun. Sahib Alıyev.

**S.Alıyev**. Təşəkkür edirəm, cənab Sədr. Hörmətli həmkarlar, mən də Azərbaycan parlamentinin formalaşmasının 100 illiyi ilə bağlı hər birinizi təbrik edirəm. Qeyd etmək istəyirəm, cənab Sədr də vurğuladı ki, bu, müsəlman Şərqində yaradılan təkcə ilk parlament deyildi. Biz, bizim babalarımız bununla xanlıqlara yox, dövlətə haqq edən xalqıq, dövlət xalqıyıq, millətik və bu da əbədi olaraq tari-

xə həkk olundu. Onların ruhu qarşısında baş əyirəm.

O ki qaldı Zatulinin səfəri məsələsinə, Zatulin və yandaşları niyə bu həftə Yerevana getmişdilər? Mənə elə gəlir ki, onların bu həftə Yerevana səfəri cənab Vladimir Putinin "geosiyasi fəlakət" adlandırdığı SSRİ-nin dağılmasının bayramı idi. Çünki məhz 30 il bundan əvvəl bu günlərdə azərbaycanlıların Ermənistandan son kütləvi köçü baş verib. Onlar ora bu tarixi bayram etməyə getmişdilər və məhz bu tarixlə də SSRİ-nin süqutuna start verilib. Zatulinlər və onların yandaşları bunu unutmalı deyillər. Mən dünən fikir verirdim, Sank-Peterburqdakı görüşdə, sadəcə, bədən dilinə diqqət yetirmək kifayət idi ki, hər iki dövlətin prezidentləri cənab İlham Əliyev ilə Vladimir Putin arasında necə səmimi, dostcasına, güvənli yanaşma olduğunu sezəsən. Amma belə hərəkətlər, təbii ki, iki dövlət arasındakı bu cür səmimiyyətə zərbə vurur.

On gün bundan öncə cənab İlham Əliyev Çeçenistanın Prezidentini qəbul etdi. Çeçenistanın rəhbəri vurğuladı ki, Azərbaycanın Qafqazda rolu danılmazdır. Doğrudan da, Azərbaycanın Qafqazda rolu danılmazdır və sadəcə, bunu demək kifayətdir ki, böyük işsizlik problemi ilə üzləşən Şimali Qafqaza Azərbaycan hazırda yüz milyonlarla yatırım qoyub, orada nə qədər iş yeri açıb. Bəs Ermənistan nə edir? Çox təəssüf ki, Rusiyada bəzi çevrələr, Zatulin kimilər regiona, bütövlükdə Qafqaza 300 il bundan öncəki stereotipləri ilə yanaşırlar. Amma zaman dəyişir. Zaman 300 il bundan öncəki zaman deyil, Azərbaycanın regionda oynadığı rolu, hər iki dövlət başçılarının aralarında yaranmış bu münasibəti, aramızdakı tərəfdaşlığın getdikcə strateji müttəfiqə çevrildiyini nəzərə alaraq, yanaşma da gərək dəyişsin.

**Sədrlik edən**. Sağ olun. Musa Qasımlı.

**M.Qasımlı**. Hörmətli cənab Sədr, hörmətli millət vəkilləri! İlk növbədə mən cümhuriyyət parlamentimizin açıldığı bu gün münasibəti ilə hamını təbrik edirəm. Bu gün bizim siyasi dövlətçilik tariximizdə ən parlaq səhifələrdən biridir.

İkinci toxunacağım məsələ Zatulin və onun kimilərin İrəvanda çıxışları ilə bağlıdır. Burada oturanların, demək olar, hamısı çox yaxşı bilir ki, bir zamanlar Stalin 1921-ci il Moskva və Qars müqavilələrini ləğv eləyə bilmədi. Əgər Stalin kimi bir diktator, SSRİ kimi dünyanın iki fövqəlgüc dövlətindən biri olan ölkənin rəhbəri bu müqavilələri ləğv eləyə bilmədisə, Zatulinin bu fikirləri söyləməkdə məqsədi nədir? Biz bunları xırdalığına qədər bilməliyik, dəqiq qiymət verməliyik və ona uyğun cavablarımızı hazırlamalıyıq.

Onun iki məqsədi var. Biri daxildə erməni ictimai rəyinə yönəlib. Göstərmək istəyirlər ki, – biz bunları araşdırdığımız üçün söyləyirəm, – sanki Dağlıq Qarabağ məsələsi həll olunub, erməni ictimai rəyi sakitləşsin, növbədə Naxçıvandır. İkinci məqsəd Azərbaycan–Rusiya münasibətlərini pozmaqdan ibarətdir və Zatulinin hərəkətləri Rusiyanın milli dövlət maraqlarının əleyhinədir. Ona görə də, hörmətli cənab Sədr, mən Sizin müraciətinizi tamamilə müdafiə edirəm və hesab edirəm ki, biz başqa bir addım daha atmalıyıq. Əgər məsləhət olarsa, parlament rəhbərliyi Rusiya–Azərbaycan parlamentlərarası işçi qrupunun birgə, ya Bakıda, ya da Moskvada bir toplantısını keçirsin. Biz, ümumiyyətlə, mətbuatımızda ön yerə yalnız Ermənistanın təcavüzü nəticəsində yaranmış Dağlıq Qarabağ məsələsini qoymalıyıq. Əgər biz başqa məsələləri önə çıxarsaq, onları müzakirə obyektinə çevir-

sək, o zaman Zatulin kimilərinin niyyətinə xidmət etmiş olarıq. Hesab edirəm ki, belə bir görüşün keçirilməsində fayda var. Diqqətinizə görə təşəkkür edirəm.

**Sədrlik edən**. Sağ olun. Siyavuş Novruzov.

**S.Novruzov.** Təşəkkür edirəm, hörmətli Sədr. Mən də həmkarlarımın dediyinə qoşuluram. Qeyd etmək istəyirəm ki, Ermənistanda iqtisadi-siyasi vəziyyət ağırlaşan kimi dərhal Naxçıvan məsələsi ortaya atılır.

Vaxtilə ümummilli lider uzaqgörənlik edərək hələ 1990-cı illərdə Qars müqaviləsinin uzadılması ilə əlaqədar çox ciddi bir qərar qəbul elədi, həm Rusiya, həm Türkiyə, həm Azərbaycan, həm də digər ölkələr yenidən bu müqavilənin uzunmüddətli fəaliyyəti ilə bağlı imza atdılar. O bu günləri görürdü və bu qərarı vaxtında qəbul etdirdi. Biz də bu gün onun bəhrəsini görürük. Ona görə də kimin nə danışmasından asılı olmayaraq, bu məsələdə heç bir əhəmiyyət görmürəm.

Mən başqa bir məsələyə toxunmaq istəyirəm. Oqtay müəllim, dövlətlərarası, prezidentlərarası, parlamentlərarası, xalqlararası münasibətlər aydındır. Bunun nəticəsidir ki, bu gün Azərbaycanla Rusiya arasında çox gözəl münasibətlər var. Bu münasibətlərdən ən çox bəhrələnən kimdir? Bu gün Rusiyada sahibkarlıqla, bizneslə məşğul olan azərbaycanlılardır. Bu cür proseslər gedir, indi biz Zatulin haqda danışırıq. Orada keçirilən toplantıda erməni dövlətinin rolu yoxdur, orada erməni diasporu iştirak edir və onların cəlb etdiyi insanlar var. Təbii ki, dolayısı ilə bu var. Lakin bütün jurnallarda 7-ci, 10-cu, 11-ci, 15-ci yerdə kifayət qədər milyoner azərbaycanlıların siyahısı çıxır. Bu gün səfirlik, Heydər Əliyev Fondu, bir də Gənclər Fondundan başqa Rusiyada hansı təşkilat tədbir keçirir? Hansı biri rus ictimaiyyətini oraya toplayır, oraya vəsait

qoyur? Axı bu prezidentlər arasında münasibətlərdən qazancı onlar əldə edirlər.

Bu gün Rusiyada azərbaycanlılara qarşı nə polis hücumu var, nə də başqa hərəkətlər. Heç biri yoxdur, əksinə, orada milyonerlər ittifaqı yaradıblar, anti-Azərbaycan mövqeyi tuturlar, erməni planının əsasında Azərbaycandakı bəzi anti-Azərbaycan qüvvələrin maliyyələşdirilməsi ilə məşğul olurlar. Bu adamlar qabağa çıxmalıdırlar. Rusiya parlamentində bir nəfər Zatulin var, amma yüzlərcə digər insan var. O insanları da cəlb eləmək lazımdır. Onlar da Azərbaycanın haqq sözünü desin, iştirak eləsin. Nə qədər dost-tanışları var, bundan istifadə eləmək lazımdır. Ona görə tək dövlət deyil, bu insanlar da məsuliyyətlərini dərk eləməlidirlər. Sağ olun.

**Sədrlik edən**. Sağ olun. Amma bir şeyi nəzərinizə çatdırım ki, "Lazarev klubu" yaranmamışdan qabaq Rusiyada bizim "Rada klubu"muz yaranıb və çox gözəl də işləyirlər. Orada rus ictimaiyyətindən nümayəndələr də, azərbaycanlılar da var. Milyonerlərdən danışmıram, mən o təşkilatda iştirak edən adamlardan danışıram.

Bir neçə dəfə Naxçıvan adını eşitdim, ona çox fikir verməyin. Onlar baxırlar ki, Naxçıvandan Yerevana cəmi 60 kilometrdir, ona görə həmişə narahat olurlar. Belə şeylərə çox fikir verməyin. İsa Həbibbəyli.

**İ.Həbibbəyli.** Mən də "Lazarev klubu" haqqında deputat həmkarım Əli Hüseynlinin və digər deputat yoldaşlarımın dedikləri fikirlərə tamamilə şərikəm. "Lazarev klubu" radikal erməni klubudur, millətçilik və düşmənçilik ideyalarını yaymaqla məşğuldur. "Lazarev klubu", oradakı Zatulin, Kazimirov kimi adamların verdiyi məsuliyyətsiz bəyanatlar bütövlükdə regionda, ölkələrarası münasibətlərdə gərginlik, çaşqınlıq, qarşıdurma yaratmağa xidmət

eləyir. Məncə, bu, Rusiya dövlətinin də maraqlarına qətiyyən uyğun deyildir.

Azərbaycan–Rusiya münasibətləri möhkəm təməllər üzərində inkişaf edir, xalqımız da, siyasi ictimaiyyətimiz də bu münasibətlərin daha da möhkəm olmasının tərəfdarıdır. Bu, onların istəyindən asılı olmayaraq möhkəmlənəcəkdir.

Qaldı ki Qars müqaviləsi məsələsinə, Qars müqaviləsi haqqında məlumat vermək istəyirəm ki, 1921-ci il oktyabrın 13-də imzalanmış Qars müqaviləsi beynəlxalq müqavilədir. Bu müqavilədə 5 dövlətin imzası vardır. Həmin müqaviləyə Rusiya, Türkiyə, Azərbaycan, Gürcüstan və Ermənistan imza atmışlar. Beynəlxalq müqavilənin şərtlərindən biri də odur ki, tərəflərdən yalnız birinin narazılığı olarsa, müqavilə ləğv edilə bilməz. Ona görə "Lazarev klubu"nda Ermənistanın səsləndirdiyi o fikirlər beynəlxalq müqavilənin şərtlərinə, Qars müqaviləsinin müddəalarına qətiyyən uyğun deyildir. Qars müqaviləsi bu gün də regionda sülhün, əməkdaşlığın, sabitliyin təmin olunmasına öz töhfəsini verir. Vaxtında öz işini görmüş tarixi Qars müqaviləsi bu gün də region dövlətləri üçün əhəmiyyətli və qiymətlidir.

Qars müqaviləsi 1921-ci il martın 16-da imzalanmış Moskva müqaviləsinin əsasında formalaşmışdır. Moskva müqaviləsi isə Rusiya–Türkiyə münasibətlərinə həsr olunmuş müqavilədir. Qars müqaviləsini ləğv eləmək üçün əvvəlcə Moskva müqaviləsini ləğv eləmək lazımdır. Moskva müqaviləsi isə Rusiya–Türkiyə münasibətləri üçün dünən olduğu kimi, bu gün də son dərəcə aktualdır. Rusiya kimi böyük diplomatik təcrübəsi olan dövlət heç vaxt belə addım atmaz.

Qaldı ki Naxçıvan məsələsinə, ərazi etibarı ilə ən qədim

türk-Azərbaycan torpağıdır, qədim Oğuz, Dədə Qorqud yurdudur, orada ermənilərin heç bir izi-tozu yoxdur, olmayıb. Ermənilərin belə bəyanatları əsassızdır, təcavüzkar xarakter daşıyır. Nə elmə, nə də siyasətə söykənir.

**Sədrlik edən**. Sağ olun. Cavid Qurbanov.

**C.Qurbanov.** Çox sağ olun, Oqtay müəllim. Mən də bayram münasibəti ilə Sizi təbrik edirəm. Həmkarlarımın yadına salmaq istəyirəm ki, Vorontsov Lazarevi İranda Təbrizə komendant təyin etmişdi. O, Lazarev deyil, sadəcə, Lazaryan idi. Yəqin ki, belə desək yaxşıdı, "Lazaryan klubu"nun üzvü olan Zatulin də haradasa yallanır və yalandan da səs çıxarmalıdır, bir söz deməlidir. Deyir, qoy, özü üçün desin. Bu, sadəcə, iki dövlətin arasındakı münasibətləri korlamağa yönəlmiş siyasətdir.

Bu yaxınlarda biz cənab Prezidentin başçılığı ilə Rusiyada dövlətlərarası, hökumətlərarası komissiyada iştirak etdik. İnanın ki, mən oradakı münasibətləri bilirəm, çox gözəl münasibət, istilik var, bizim Rusiya ilə işlərimiz, hər şey qaydasındadır.

Bundan başqa, bizim dəmir yolları ilə yük daşıması keçən ilə nisbətən 9 faiz artıb. Cənab Prezidentin çıxışında söylədiyi kimi, bura keçən il 800 min rus gəlib. Amma yoxlasınlar, görsünlər, Ermənistana əsgərlərdən başqa kim gedib? Bir adam da getməyib. Gedirsə və ya getmirsə, onların əsas məqsədləri bizim münasibətləri pozmağa yönəlmiş bir şeydir. Buna da cırnamaq lazım deyil. Ölkəmiz gücləndikcə, onun reytinqi artdıqca bu məsələlər olacaq.

Ermənilər bilməlidirlər ki, biz öz torpaqlarımızdan imtina edəsi deyilik. Biz əvvəl-axır Atillanın ayağı dəyən hər türk torpağına iddialıyıq. Azərbaycanın əzəli torpaqlarıdır və ermənilərin bu saat yerləşdiyi yer də bizim torpaqdır, Hüseynqulu xanın torpağıdır, birbaşa bizim Prezidenti-

mizin babalarına gedib çıxır. O da bizim torpaqdır və biz oranı qaytarıb almalıyıq. Ermənidir, danışır, qoy, danışsın. Nə qədər danışacaqsa, ona ancaq ziyan gətirəcək. Bizim işimiz siyasətimizi düzgün aparmaq, ölkəmizi gücləndirmək, iqtisadiyyatımızı yüksəltmək və torpaqlarımızı geri almaqdır. Təşəkkür edirəm.

**Sədrlik edən.** Sağ olun. Araz Əlizadə.

**A.Əlizadə**. Çox sağ olun. Hörmətli Sədr, əziz həmkarlarım, belə bir gündə biz vaxtımızı Zatulinə həsr edirik. Bu, çox təəssüf doğrucudur. Zatulin kimdir? O, qatı şovinistdir, Ukraynaya, bütün dünyaya qarşı işləyir və şovinizmi təbliğ edir, daim erməniləri müdafiə edir. Niyə? Ona görə ki, Ara Abramyanın əlindən çörək yeyir. Nə üçün Ermənistanda "Lazarev klubu" açılmalı idi? Çünki general Lazarev oğru idi, vaxtı ilə Nadir şahın xəzinəsindən oğurlanmış iki brilyantı Rusiya xəzinəsinə gətirmişdi və onları erməni diasporuna ötürdü. Erməni diasporu da Aqambekyanın köməyi ilə o brilyantlardan birini Raisa Qorbaçovaya verdi. Sonra Aqambekyanın Qarabağı Ermənistanın tərkibində görməsi "fit"indən sonra bütün bu hadisələr start götürdü. Odur ki, Ermənistanda, oğrulardan ibarət dövlətdə oğru Lazarevin adına Zatulin kimi satqın bir adamın nə isə təşkilat yaratmasına heç təəccüblənmək lazım deyil.

Moskva müqaviləsinə, Naxçıvan məsələsinə gəlincə, bunun da "fit"ini kim birinci verdi? Andranik Miqranyan. Tok-şouda – "Pravo qolosa"-da dedi ki, Moskva müqaviləsi imzalananadək Naxçıvanda bir nəfər azərbaycanlı yaşamırdı. Bizim orada diplomatik nümayəndələr və sair var. Bu boyda yalanın qabağında heç kəs çıxıb cavab vermədi. Qarabağ problemi başlayanda biz təbliğat müharibəsini uduzmuşduq. İndi də təbliğat müharibəsini tədri-

cən uduzuruq. Baxın, siyasi tok-şoularda, hər yerdə ermənilər oturub, aparıcılar da artıq ermənilərdir. Biz mütləq nə isə bir çarə qılmalıyıq, öz siyasətşünaslarımızı Rusiyaya göndərməliyik ki, onlar orada efirə çıxsınlar və Azərbaycanın mövqeyini müdafiə etsinlər. Bizim oliqarxlardan heç nə gözləmək lazım deyil, onlar özlərindən başqa heç kəsi sevmirlər və istəmirlər. Gəlin, biz düşündüyümüz şəkildə cavan politoloqlarımızı Rusiya televiziyasına çıxaraq ki, növbəti dəfə təbliğat mübarizəsini uduzmayaq. Çox sağ olun.

**Sədrlik edən.** Çox sağ olun. Artıq 40 dəqiqədən çoxdur, müzakirə edirik. Heç kim inciməsin. Burada Fazil Mustafa bir məsələ qaldırdı. Mən hesab edirəm ki, biz keçmişimizi, parlamentimizi, köhnə parlamentariləri qədərincə həmişə yad edirik. Bu yaxınlarda 100 illiyimizi keçirdik və onları 100 illikdə də yad etdik. Bu günlərdə bizim Milli Məclisin hazırladığı "Azərbaycan parlamentarizmi tarixi" kitabında bunlar daha geniş yazılıb, yenə təbliğ edəcəyik. Ona görə ayın 7-i, eyni zamanda, bayram günü olduğu üçün bunu bir dəqiqəlik sükutla qeyd etməyi mən düz saymıram. Ancaq biz həmişə onları yad edirik, bizim bütün kitablarımızda, tarixlərimizdə onlar yazılıb.

O ki qaldı yubiley medalına, bəli, yubiley medalı hazırdır, yəqin bu yaxınlarda iclasların birində, ola bilər ki, Azərbaycanın həmrəylik gününə yaxın bir vaxtda millət vəkillərimizə təqdim edərik.

İndi əsas gündəliyə keçirik. Gündəliyin 1-ci məsələsi "Normativ hüquqi aktlar haqqında" Qanunda dəyişiklik edilməsi barədə Konstitusiya Qanunudur, ikinci oxunuşdur. Xahiş edirəm, səsvermədə diqqətli olaq, bu, Konstitusiya Qanunudur. Buyursun Valeh Ələsgərov.

**V.Ələsgərov,** *Milli Məclis Sədrinin müavini, Təbii ehtiyatlar, energetika və ekologiya komitəsinin sədri.*

Təşəkkür edirəm, cənab Sədr. Milli Məclisin 31 may iclasında "Normativ hüquqi aktlar haqqında" Azərbaycan Respublikasının Konstitusiya Qanununda dəyişiklik edilməsi barədə Konstitusiya qanununun layihəsi, bu əlavə edilmiş maddə birinci səsvermədə qəbul edilmişdi. Qanunlarımızın tələblərinə uyğun olaraq Konstitusiya Qanunu olduğuna görə ikinci səsverməni keçirməliyik və bundan sonra da bu əlavə qüvvəyə minəcəkdir. Əlavə edilən 5.4-cü maddə birinci səsvermədə olduğu kimi eyni məzmundadır:

"Ələt azad iqtisadi zonasının ərazisində, "Ələt azad iqtisadi zonası haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş hallarda bu Konstitusiya Qanunundan fərqli hüquqi tənzimləmə tətbiq edilir və həmin zonanın fəaliyyəti ilə bağlı qəbul edilmiş aktlar azad zona daxilində məcburi hüquqi qüvvəyə malikdir". Əminəm ki, səs verib qəbul edəcəyik. Təşəkkür edirəm, sağ olun.

**Sədrlik edən.** Çox sağ olun. Xahiş edirəm, "Normativ hüquqi aktlar haqqında" Konstitusiya Qanununda dəyişiklik edilməsi barədə Konstitusiya qanununun layihəsinə ikinci oxunuşda münasibət bildirək.

| **Səsvermənin nəticələri** | (saat 12.48 dəq.) |
|---|---|
| Lehinə | 99 |
| Əleyhinə | 2 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 101 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qəbul edildi.

Gündəliyin 2-ci məsələsi “Aviasiya haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədədir, ikinci oxunuşdur. Xahiş edirəm, ikinci oxunuş olduğu üçün qanun layihəsinə əvvəl əsas kimi münasibət bildirək. Üzr istəyirəm, üçüncü oxunuşdur. Xahiş edirəm, qanun layihəsinə münasibət bildirək.

| **Səsvermənin nəticələri** | (saat 12.49 dəq.) |
|---|---|
| Lehinə | 101 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 101 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qəbul edildi.

3-cü məsələ “Dövlət borcu haqqında” Qanunda dəyişiklik edilməsi barədədir, üçüncü oxunuşdur. Ziyad müəllim, əgər üçüncü oxunuşa bir şey varsa, buyurun.

**Z.Səmədzadə,** *Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri.*

Hörmətli cənab Sədr, hörmətli millət vəkilləri, qanun layihəsi Milli Məclisin plenar iclasında ikinci oxunuşda müzakirə edilərkən ona hər hansı bir əlavənin edilməsi barədə təklif daxil olmamışdır. Ona görə də sizdən xahiş edirəm ki, qanun layihəsinə səs verəsiniz.

**Sədrlik edən.** Başqa təklif yoxdursa, xahiş edirəm, qanun layihəsinə üçüncü oxunuşda münasibət bildirək.

| **Səsvermənin nəticələri** | (saat 12.50 dəq.) |
|---|---|
| Lehinə | 100 |
| Əleyhinə | 0 |

| | |
|---|---|
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 100 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qəbul edildi.

4-cü məsələ Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsində dəyişiklik edilməsi barədədir, üçüncü oxunuşdur. Buyursun Əli Hüseynli.

**Ə.Hüseynli,** *Milli Məclisin Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri.*

Çox sağ olun, cənab Sədr. İkinci oxunuş zamanı bu layihə ilə də bağlı təkliflər daxil olmamışdı. Səsə qoyulmasını xahiş edirəm.

**Sədrlik edən.** Xahiş edirəm, qanun layihəsinə üçüncü oxunuşda münasibət bildirək.

| **Səsvermənin nəticələri** | (saat 12.51 dəq.) |
|---|---|
| Lehinə | 100 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 100 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qəbul edildi.

5-ci məsələ Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi barədədir, üçüncü oxunuşdur. Əli müəllim, buyurun.

**Ə.Hüseynli.** Çox sağ olun. Hörmətli həmkarlar, feldyeger rabitəsi haqqında qanunvericiliyin pozulmasına görə İnzibati Xətalar Məcəlləsində məsuliyyət nəzərdə tutulurdu, əlavə təkliflər daxil olmamışdır. Səsə qoyulmasını xahiş edirəm.

**Sədrlik edən.** Xahiş edirəm, qanun layihəsinə münasibət bildirək.

| **Səsvermənin nəticələri** | (saat 12.52 dəq.) |
|---|---|
| Lehinə | 99 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 100 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qəbul edildi.

Növbəti 6-cı məsələ İnzibati icraat haqqında qanun layihəsində dəyişiklik edilməsi barədədir, üçüncü oxunuşdur. Əli müəllim, buyurun.

**Ə.Hüseynli.** Cənab Sədr, 6-cı və 7-ci məsələlər bir məktubda daxil olub və bir-biri ilə bağlıdırlar. Qeyd etmək istəyirəm ki, həm "İnzibati icraat haqqında" Qanuna, həm də İnzibati Xətalar Məcəlləsinə təklif olunan dəyişikliklər dövlət idarəetməsində vətəndaş məmnunluğunu təmin etmək məqsədi ilə hazırlanmışdır. İkinci oxunuş zamanı da dəstəklənib. Təklif olmayıb, səsə qoyulmasını xahiş edirəm.

**Sədrlik edən.** Xahiş edirəm, İnzibati icraat haqqında qanun layihəsində dəyişikliyə üçüncü oxunuşda münasibət bildirək.

| **Səsvermənin nəticələri** | (saat 12.53 dəq.) |
|---|---|
| Lehinə | 98 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 99 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun.

7-ci məsələ İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqındadır, üçüncü oxunuşdur. Xahiş edirəm, münasibət bildirək.

| **Səsvermənin nəticələri** | (saat 12.54 dəq.) |
| --- | --- |
| Lehinə | 101 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 101 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qəbul edildi.

Növbəti 8-ci məsələ Psixoloji yardım haqqında qanun layihəsi barədədir, üçüncü oxunuşdur. Buyursun Əhliman Əmiraslanov.

**Ə.Əmiraslanov,** *Milli Məclisin Səhiyyə komitəsinin sədri.*

Çox hörmətli Oqtay müəllim, hörməti millət vəkili həmkarlarım, Səhiyyə komitəsinin hazırladığı "Psixoloji yardım haqqında" Qanun Milli Məclisin 30 oktyabr və 30 noyabr iclaslarında geniş müzakirə olunaraq mütləq səs çoxluğu ilə qəbul edilmişdir. Qanun layihəsinin müzakirəsində hörmətli millət vəkili həmkarlarım geniş müzakirələr aparmış və dəyərli təkliflər vermişlər. Bu təkliflər Səhiyyə komitəsinin iclasında müzakirə olunmuş və onların tam əksəriyyəti qəbul edilərək qanun layihəsinin son variantında öz əksini tapmışdır. Fürsətdən istifadə edərək, qanun layihəsinin müzakirəsində iştirak edən və dəyərli fikirləri ilə onun daha da təkmilləşdirilməsinə xidmət edən təkliflərlə çıxış etmiş deputat həmkarlarıma dərin təşəkkürümü və minnətdarlığımı bildirirəm. Son olaraq hörmətli millət vəkili həmkarlarımdan qanun layi-

həsini üçüncü oxunuşda da dəstəkləmələrini xahiş edirəm. Təşəkkür edirəm.

**Sədrlik edən.** Başqa fikir yoxdursa, xahiş edirəm, gündəliyin 8-ci məsələsinə münasibət bildirək.

| **Səsvermənin nəticələri** | (saat 12.56 dəq.) |
|---|---|
| Lehinə | 100 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 100 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qəbul edildi.

Gündəliyin 9-cu məsələsi "Dövlət qulluğu haqqında" Qanunda dəyişiklik edilməsi barədədir. Buyursun Əli Hüseynli.

**Ə.Hüseynli**. Çox sağ olun, cənab Sədr. Hörmətli həmkarlar, bu layihədə təklif olunan dəyişiklik bir termin dəyişikliyi ilə bağlıdır. Belə ki, 2012-ci ildə cənab Prezidentin müvafiq fərmanı ilə "Yerli icra hakimiyyətləri haqqında Əsasnamə"də sahə inzibati ərazi dairəsi dövlət orqanı kimi göstərilib və məhz buna görə də "Dövlət qulluğu haqqında" Qanunun 11-ci maddəsində – təsnifatda "sahə inzibati ərazi dairələri nümayəndələrinin" ifadəsində əksini tapmalıdır. Yəni termin dəyişikliyidir, səs verməyinizi xahiş edirəm.

**Sədrlik edən.** Sağ olun, xahiş edirəm, gündəliyin 9-cu məsələsinə münasibət bildirək.

| **Səsvermənin nəticələri** | (saat 12.57 dəq.) |
|---|---|
| Lehinə | 101 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |

İştirak edir 
Nəticə: Qəbul edildi

Çox sağ olun, qəbul edildi.

Növbəti 10-cu məsələ "Uşaq hüquqları haqqında" və "Qaçqınların və məcburi köçkünlərin (ölkə daxilində köçürülmüş şəxslərin) statusu haqqında" qanunlarda dəyişiklik edilməsi barədədir. Buyursun Aqiyə Naxçıvanlı.

**A.Naxçıvanlı,** *Milli Məclisin Ailə, qadın və uşaq məsələləri komitəsinin sədri.*

Çox sağ olun. Hörmətli cənab Sədr, hörmətli həmkarlarım, cənab Prezident İlham Əliyev "Uşaq hüquqları haqqında" və "Qaçqınların və məcburi köçkünlərin (ölkə daxilində köçürülmüş şəxslərin) statusu haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə təşəbbüs irəli sürmüşdür. Qanunvericilik təklifi həm "Uşaq hüquqları haqqında", həm də "Qaçqınların və məcburi köçkünlərin (ölkə daxilində köçürülmüş şəxslərin) statusu haqqında" Azərbaycan Respublikasının qanunlarının "Məktəbəqədər təhsil haqqında" Azərbaycan Respublikasının 2017-ci il 14 aprel tarixli Qanununa uyğunlaşdırılması xarakteri daşıyır. Yəni təklif olunan layihəyə görə, "Uşaq hüquqları haqqında" Qanunun 11-ci maddəsinin ikinci hissəsində "məktəbdə, məktəbəqədər və məktəbdənkənar uşaq təlim-tərbiyə" sözləri "və təhsil" sözləri ilə əvəz edilir. 27-ci maddənin ikinci cümləsindən "məktəbəqədər və məktəbdənkənar müəssisələrdə" sözləri çıxarılır.

Eyni zamanda, "Qaçqınların və məcburi köçkünlərin (ölkə daxilində köçürülmüş şəxslərin) statusu haqqında" Qanunun 6-cı maddəsinin ikinci hissəsinin III bəndindən "uşaqların məktəbəqədər tərbiyə ocaqlarında, yeniyetmələrin və gənclərin müvafiq təhsil müəssisələrində" sözləri çıxarılır. Qanun layihəsi Ailə, qadın və uşaq məsələləri komitəsinin,

İnsan hüquqları komitəsinin və Əmək və sosial siyasət komitəsinin iclaslarında qəbul olunmuş və baxılması üçün Milli Məclisin plenar iclasına tövsiyə edilmişdir. Xahiş edərdim, qanun layihəsinə səs verəsiniz. Diqqətinizə görə sağ olun.

**Sədrlik edən.** Sağ olun, başqa təklif yoxdursa, xahiş edirəm, qanun layihəsinə münasibət bildirək.

| **Səsvermənin nəticələri** | (saat 13.00 dəq.) |
|---|---|
| Lehinə | 100 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 100 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qəbul edildi.

Növbəti 11-ci məsələ "Sahibkarlıq fəaliyyəti haqqında" və "Çayçılıq haqqında" qanunlarda dəyişiklik edilməsi barədədir. Bunlara iki komitədə – İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsində və Aqrar siyasət komitəsində baxılıb. Əgər ayrı-ayrı deyəcəksinizsə, buyurun, Ziyad Səmədzadə.

**Z.Səmədzadə.** Hörmətli cənab Sədr, hörmətli millət vəkilləri, "Azərbaycan Respublikasında sahibkarlığın inkişafına dövlət dəstəyi mexanizminin təkmilləşdirilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 31 iyul tarixli Fərmanı ilə Azərbaycan Respublikasının Sahibkarlığa Kömək Milli Fondu ləğv edilmiş və Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin tabeliyində Azərbaycan Respublikasının Sahibkarlığın İnkişafı Fondu publik hüquqi şəxsi təsis edilmişdir. Həmin fərmanla "Azərbaycan Respublikası Sahibkarlığın İnkişafı Fondunun Nizamnaməsi" və "Azərbaycan Respublikası Sahibkarlığın İnkişafı Fondunun vəsaitindən istifadə qaydaları" təsdiq edilmişdir.

“Sahibkarlıq fəaliyyəti haqqında” və “Çayçılıq haqqında” Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə qanun layihəsi adıçəkilən fərmana uyğun olaraq publik hüquqi şəxs statusunda olan İqtisadiyyat Nazirliyinin tabeliyində Sahibkarlığın İnkişafı Fondunun yaradılması ilə bağlıdır. Millət vəkillərindən qanun layihəsinə səs verməlॉərini xahiş edərdim.

**Sədrlik edən.** Sağ olun. Eldar müəllim, bir əlavəniz yoxdur ki? Buyurun. Mikrofon verin.

**E.İbrahimov,** *Milli Məclisin Aqrar siyasət komitəsinin sədri.*

Çox sağ olun, hörmətli cənab Sədr. İkinci – “Çayçılıq haqqında” Qanunun 9.1-ci maddəsində “Azərbaycan Respublikası Sahibkarlığa Kömək Milli Fondunun” sözlərinin “müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun)” sözləri ilə əvəz edilməsi təklif olunur. Qanunda “Azərbaycan Respublikası Sahibkarlığa Kömək Milli Fondunun” sözlərinin “müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum)” sözləri ilə əvəz edilməsi isə Konstitusiyanın 93-cü maddəsinin IV bəndinin tələbindən irəli gəlir. Belə ki, qanunlarda və Milli Məclisin qərarlarında icra hakimiyyətinə və məhkəmə orqanlarına konkret tapşırıqlar nəzərdə tutula bilməz. Bu baxımdan layihəyə səs verməyinizi xahiş edirəm.

**Sədrlik edən.** Sağ olun. Xahiş edirəm, gündəliyin 11-ci məsələsinə münasibət bildirək.

| **Səsvermənin nəticələri** | (saat 13.03 dəq.) |
|---|---|
| Lehinə | 99 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 99 |

Nəticə: Qəbul edildi

Çox sağ olun, qəbul edildi.

Gündəliyin 12-ci məsələsi "Avtomobil yolları haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədədir. Buyursun Ziyad Səmədzadə.

**Z.Səmədzadə.** Hörmətli cənab Sədr, hörmətli millət vəkilləri! "Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinin yaradılması haqqında" Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 18 oktyabr tarixli Fərmanı ilə ölkənin avtomobil yolları sayəsində idarəetməni, habelə nəzarət mexanizmlərini daha da təkmilləşdirmək, həyata keçirilən işlərin səmərəliliyini artırmaq məqsədi ilə "Azəravtoyol" Açıq Səhmdar Cəmiyyəti "Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyi" publik hüquqi şəxsə çevrilmişdir. Həmin fərmana əsasən Agentlik avtomobil yolları təsərrüfatı sahəsində xidmətlər göstərən, balansına verilmiş avtomobil yollarının, habelə körpülərin, tunellərin və digər yol qurğularının layihələndirilməsini, istismarını, bərpasını, təmirini, yenidən qurulmasını və tikilməsini, avtomobil yollarının və yol qurğularının qorunub saxlanılmasını və onların vəziyyətinə nəzarəti, o cümlədən yol infrastrukturunun inkişafı ilə bağlı digər işləri kompleks şəkildə həyata keçirən publik hüquqi şəxsdir. Agentliyin müvafiq icra hakimiyyəti orqanı olmaması qeyd olunan dəyişiklikləri labüd etmişdir.

Eyni zamanda, avtomobil yollarının torpaq sahəsində və onların mühafizə zonalarında reklam qurğularının yerləşdirilməsi sahəsində səlahiyyətlər Dövlət Reklam Agentliyinə həvalə edildiyindən qanuna müvafiq dəyişikliklər təklif edilmişdir.

Avtomobil Yolları Dövlət Agentliyi özfəaliyyət istiqamətləri üzrə müvafiq işləri lisenziya və icazə olmadan həyata keçirə biləcəkdir. Bu işlərin siyahısı müvafiq icra

hakimiyyəti orqanı tərəfindən təsdiq ediləcəkdir. Hazırda isə yol təsərrüfatı sahəsində istənilən işləri görmək üçün heç bir məhdudiyyət tətbiq olunmur. Qanuna, eyni zamanda, bir sıra dəqiqləşdirmə xarakterli dəyişikliklər, o cümlədən ödənişli yollarla bağlı dəyişiklik təklif edilmişdir. Ona görə millət vəkillərindən bu qanun layihəsinə də səs vermələrini xahiş edirəm.

**Sədrlik edən.** Sağ olun. Əflatun Amaşov.

**Ə.Amaşov.** Hörmətli cənab Sədr, hörmətli deputatlar, əziz media nümayəndələri! "Avtomobil yolları haqqında" Qanuna dəyişikliyi müzakirə edirik. Bu dəyişiklik vacibdir və inanıram ki, yol təsərrüfatının idarə olunmasında məsuliyyətin artırılmasına gətirib çıxaracaqdır. Ümumən, qanunun icrasına nəzarətin gücləndirilməsi önəmlidir. Mən də bu xüsusda fikirlərimi bildirmək istərdim.

Ölkəmizdə kifayət qədər müasir yollar salınıb. Yol infrastrukturu rayonları da əhatə edir. Deputatı seçildiyim Saatlı rayonunun, demək olar, bütün kəndarası yolları asfaltlanıb. Yalnız Genişkəndə gedən 2,5 kilometr yol qalıb. Ümid edirəm ki, o da lap tezliklə çəkiləcəkdir. Yolların salınmasına kifayət qədər böyük vəsait xərclənib və xərclənməkdədir. Ancaq təəssüf ki, biz bu yolların tez bir zamanda sıradan çıxdığının şahidi oluruq. Buna, əlbəttə, kimlərinsə işinə, yəni yol salınmasına məsuliyyətsiz yanaşması səbəb ola bilər. Amma məsuliyyətsizliyin digər bir tərəfi də var. Yəqin ki, yollarda iritonnajlı maşınların, –onların ağırlığı təqribən 130-150 tona qədərdir, – hərəkət etdiyinin şahidi olmusunuz. Bakı–Qazax avtomobil yoluna diqqət yetirin. Yolun elə hissələri var ki, sağ zolaq bərbad haldadır. Hamısı həmin iritonnajlı yük avtomobillərinə görədir. Onlara nəzərdə tutulandan artıq yük vurulur, bu da böyük vəsaitlər xərclənərək saldığımız

yolların tez bir zamanda sıradan çıxmasına səbəb olur. Bu fikirlər, eyni zamanda, Saatlıdan İmişliyə gedən Musalı, Məzrəli yolu üçün də xarakterikdir. Qısa müddətdə istifadəyə verilməsinə baxmayaraq, orada da ciddi problemlər yaranmaqdadır. Xahiş edirəm, əlaqədar qurumlar bununla ciddi məşğul olsunlar. Əks halda zaman keçdikcə biz burada da fəsadların şahidi olacağıq.

Hörmətli cənab Sədr, mən də fürsətdən istifadə edib bu gün hamını təbrik edirəm. Çünki bu gün nəinki Azərbaycanda, bütün Şərqdə, müsəlman aləmində ilk parlamentin fəaliyyətə başladığı gündür.

Bayaq burada Zatulinlə bağlı söhbət düşdü. Əlbəttə, Zatulindən əvvəl Dmitri Kiselyov "Qriboyedov klubu"nu yaratmışdı. İndi də Zatulin "Lazarev klubu"nu yaradıb. Bunların məqsədi ayda 1 dəfə bahalı restoranlarda oturub müəyyən hadisələrlə bağlı öz fikirlərini bildirməkdir. Əlbəttə, bu sayaq məsələlər olacaq, yəqin ki, bundan sonra da belə fikirlər səslənəcəklər.

Hörmətli cənab Sədr, biz bir müddət bundan əvvəl hörmətli deputat Eldar Quliyevlə birlikdə Sizin tövsiyənizlə Yerevanda olduq, Qara dəniz İqtisadi Əməkdaşlıq Təşkilatının Parlament Assambleyasında iştirak etdik. Demək olar, bütün müzakirələrdə fəal çıxış etdik. Onların bizə təklif etdiyi medaldan imtina etdik. Biz Yerevanda insanlarla söhbət zamanı və şəhəri, yolları müşahidə edərkən Azərbaycanın nə qədər inkişaf etməkdə olduğunun, bizim onlardan nə qədər irəlidə olduğumuzun şahidi olduq. Ancaq mən belə düşünürəm ki, biz öz torpaqlarımızı işğaldan qurtarmaq üçün istər iqtisadi baxımdan, istərsə də hərbi baxımdan güclü olmalıyıq. Eyni zamanda, biz öz düşüncələrimizi dəyişməliyik və xaricdə Azərbaycanla bağlı təbliğatımızı daha çevik qurmalıyıq. Mən elə bilirəm ki, biz bunları edəcəyik və

tezliklə torpaqlarımızı düşmən işğalından azad etməyə nail olacağıq. Diqqətinizə görə sağ olun, minnətdaram.

**Sədrlik edən.** Sağ olun. Xahiş edirəm, qanun layihəsinə – 12-ci məsələyə münasibət bildirək.

| **Səsvermənin nəticələri** | (saat 13.10 dəq.) |
|---|---|
| Lehinə | 93 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 93 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qəbul edildi.

Gündəliyin 13-cü məsələsi “Azərbaycan Sərhəd Mühafizəsinin 100 illiyi (1919–2019)” Azərbaycan Respublikasının yubiley medalının təsis edilməsi ilə əlaqədar “Azərbaycan Respublikasının orden və medallarının təsis edilməsi haqqında” Qanunda dəyişiklik edilməsi barədədir. Buyursun Əli Hüseynli.

**Ə.Hüseynli.** Çox sağ olun, cənab Sədr. Bilirsiniz ki, Xalq Cümhuriyyətinin 100 illiyi təntənəli surətdə qeyd olunur və Xalq Cümhuriyyəti zamanı yaradılmış bir çox dövlət orqanları ilə bağlı yubiley medalları təsis olunub. Onlardan biri də “Azərbaycan Sərhəd Mühafizəsinin 100 illiyi (1919–2019)” yubiley medalıdır. Birinci oxunuşda qəbul olundu. İkinci oxunuşda da səs verməyinizi xahiş edirəm.

**Sədrlik edən.** Çox sağ olun. Qanun layihəsinin ikinci oxunuşudur. İlk növbədə əsas kimi qəbul edək. Xahiş edirəm, əsas kimi münasibət bildirək.

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 13.11 dəq.) |
| Lehinə | 93 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 93 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qəbul edildi.

İndi isə xahiş edirəm, qanun layihəsinə ikinci oxunuşda münasibət bildirək.

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 13.12 dəq.) |
| Lehinə | 89 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 2 |
| İştirak edir | 91 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qəbul edildi.

Gündəliyin 14-cü məsələsi "Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında" Qanunda dəyişiklik edilməsi barədədir. Buyursun Əli Hüseynli.

**Ə.Hüseynli.** Çox sağ olun. Hörmətli həmkarlar, bu layihə məhdud məsuliyyətli cəmiyyətlərin sənədlərinin elektron qaydada qeydiyyatına həsr olunmuşdur. Birinci oxunuşda da həmkarlar dəstəkləmişdilər. İkinci oxunuşda da səs verməyinizi xahiş edirəm.

**Sədrlik edən.** Xahiş edirəm, qanun layihəsinə əvvəl əsas kimi münasibət bildirək.

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 13.13 dəq.) |
| Lehinə | 96 |

| | |
|---|---|
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 96 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qəbul edildi.

İndi xahiş edirəm, qanun layihəsinə bütövlükdə səs verək.

| **Səsvermənin nəticələri** | (saat 13.13 dəq.) |
|---|---|
| Lehinə | 95 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 95 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qəbul edildi.

Gündəliyin 15-ci və 16-cı məsələləri də bir zərflə gəlib, ikinci oxunuşdur. 15-ci məsələ Azərbaycan Respublikasının Mənzil Məcəlləsində dəyişiklik edilməsi haqqında, 16-cı məsələ İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqındadır. Buyursun Əli Hüseynli.

**Ə.Hüseynli.** Çox sağ olun, cənab Sədr. Qeyd etməliyəm ki, bu layihələr, xüsusən də Mənzil Məcəlləsi ilə bağlı layihə kifayət qədər əhəmiyyətlidir. Bilirsiniz ki, son dövrlərdə biz Mənzil Məcəlləsi ilə bağlı bir sıra dəyişikliklər etmişik. Bu sahədə islahatlar həyata keçirilib. Ən başlıcası, təqdim olunan layihə də çoxmənzilli binaların, o cümlədən tikintisi tam başa çatmış kooperativ binaların idarə edilməsi ilə bağlı mexanizmin təkmilləşdirilməsinə həsr olunur. Eyni zamanda, qeyd etməliyəm ki, mənzil qanunvericiliyinin bir sıra hallarda hüquqi şəxslər və vəzifəli şəxslər tərəfindən pozulması hallarına da yol

verilir. Məhz buna görə də digər bir layihə ilə 16-cı məsələdə – İnzibati Xətalar Məcəlləsində mənzil qanunvericiliyinin pozulmasına görə cərimə sanksiyaları, kifayət qədər ciddi cərimə sanksiyaları tətbiq olunur. Bütövlükdə mən hər iki layihəni çox mütərəqqi hesab edirəm və həmkarlardan ikinci oxunuşda səs verməyi xahiş edirəm.

*Azərbaycan Respublikası Milli Məclisi Sədrinin birinci müavini* ***Ziyafət Əsgərov*** *sədrlik edir*

**Sədrlik edən.** Sağ olun. Qanun layihəsinin müzakirəsinə keçməzdən əvvəl xahiş edirəm, qanun layihəsini əsas kimi qəbul edək.

| **Səsvermənin nəticələri** | (saat 13.15 dəq.) |
|---|---|
| Lehinə | 90 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 90 |
| Nəticə: Qəbul edildi | |

Qəbul edildi, sağ olun.

Buyurun, yazılın. Çıxış etmək istəyən varmı? Zahid Oruc.

**Z.Oruc.** Təşəkkür edirəm, hörmətli Ziyafət müəllim. Hörmətli həmkarlar, çox qısa şəkildə, bu sənədi müdafiə etməklə bərabər, bir neçə mühüm aktları xatırlatmaq istəyirəm və təkliflə çıxış etməyə çalışacağam.

Birinci növbədə, hörmətli Ziyafət müəllim, biz nəzərə almalıyıq ki, Azərbaycanda Mənzil Fondu bütövlükdə son 20 ildə köklü dəyişikliyə məruz qalıbdır. Bu, əlbəttə ki,

qürur doğuran hadisədir. Çünki son dediyimiz dəyişikliklər bəlkə də XX əsrdə inşa olunmuş, ərsəyə gəlmiş binaların həm mənəvi-fiziki köhnəlməsini aradan qaldırmış olur, yeni münasibətlər yaradır, həm də bir inkişaf göstəricisidir və sair. Amma bununla bərabər, bu sahədə həm parlament, həm də hökumət tərəfindən atılacaq addımlar da yetərincə çoxalır.

Mən xatırlatmaq istəyirəm ki, təəssüf olsun ki, Nazirlər Kabinetinin bu sahə ilə bağlı bir sıra təlimatları hələ də ötən əsrin 80-ci illərindən qalmaqdadır. Bu, əlbəttə ki, məqbul hal sayıla bilməz. Çünki bütün kvotalar, tələblər, normativlər bizim qanunlarla paralel dəyişdirilməlidir, yenilənməlidir. O üzdən biz mənzil sahəsində, binalarda, evlərin inşasında hələ də vətəndaşlarla hökumət orqanları arasında problemləri görürük və bu, əksər hallarda məhkəmələrdən keçir, insanlar illərlə bu prosesi yaşayırlar. Ona görə də hökumətin tərkibində, onun rəhbərliyində ciddi dəyişikliklər aparılıb. Biz bu dəyişikliyi Bakı şəhər İcra Hakimiyyətinin rəhbərliyində görürük. Bu yenilənmə həmçinin Arxitektura komitəsində də gedib. Mən arzulayıram ki, birinci növbədə onlar bu yöndə olan təlimat sənədlərini köklü şəkildə dəyişdirsinlər.

İkincisi, hörmətli Ziyafət müəllim, "ASAN xidmət"ə qeydiyyat məsələləri ilə bağlı cəmi 1 dəfə müraciət edənər görürlər ki, bizim timsallı adamlar Azərbaycanda və ondan kənarda çox böyük nüfuz qazanmış, yəni çevik, asan xidmətlə uğur əldə etmiş bu quruma daha başqa vasitələrlə də kömək etməyə çalışaq. Bu nədən ibarətdir? Biz 90-cı illərdə yaşamırıq, Bakı qapalı şəhər deyil, qeydiyyat məsələləri çətinlik doğurmamalıdır. Ancaq siz ona şahid olacaqsınız ki, adamlar mənzilləri hüquqi cəhətdən, yəni rəsmiləşdirmədiyindən, mülkiyyət aktı almadığından, bi-

na reyestrdən keçmədiyindən  vətəndaşlar, 100 minlərlə insan öz yaşadıqları yerdə qeydiyyatda deyil.

“ASAN xidmət”də bu prosesi qohumunun, əqrəbasının, Bakı çevrəsində digər insanların üzərinə  edirlər. Halbuki hüquqi cəhətdən  sadə bir məsələni düşünmək olar, yəni biz Mənzil Məcəlləsində bu dəyişiklikləri edə bilərik. Mən bunun üçün çıxışa yazıldım.  Qeydiyyatı yaşadığı yer üzrə aparaq, bu, qətiyyən həmin adama həmin mənzili mülkiyyət sahibinə çevirmək hüququ hələ verməsin. Belə qəbul edək. Faktiki olaraq, onsuz da o, orada müxtəlif kommunal tarifləri ödəyir, öhdəliklərini yerinə yetirir. Əgər biz buna yol veririksə, niyə bu qeydiyyat məsələsində də bunu yaşamayaq? Vətəndaş niyə öz ərazisindən kənarda qeydə alınmış olsun? Ona görə də Mənzil Məcəlləsi dəyişilməlidir. Açıq desək, Azərbaycanda bu sahədə hələ də belə problemlər yaşamaqdayıq.

Əli müəllim qeyd etdi, bu sahədəki pozuntularla bağlı cəza sanksiyaları sərtləşdirilib. Mən bunları müdafiə edirəm.  Üçüncü toxunmaq istədiyim məsələ də elə bununla bağlıdır. Yaşayış binaları qeyri-yaşayış məqsədlərlə istifadə olunduğu təqdirdə bu, insanlar üçün əzaba çevrilir. Mənzil bir qədər də müqəddəs anlayışdır, evdir, ocaqdır, insanların ruhu, varlığı oraya köçür. Amma bir də görürsən ki, 2-ci və ya 5-ci mərtəbədə hansısa bir federasiya özü üçün məşq salonu yaradıb. Bundan sonra artıq insanlar həmin binanın ortasında mütləq o ağrını yaşayacaqlar. Kimsə əzələ yığacaq, amma əvəzində başqa adamların əzələləri haldan düşəcək. Belə olan təqdirdə biz bu yöndə də cəza addımlarımızı atmalıyıq.

Sonuncu olaraq, hörmətli Ziyafət müəllim, ötən dəfə həmkarımız hörmətli Fazil Mustafa qeyd etdi. Biz indi kooperativlərlə bağlı məsələnin hüquqi cəhətdən statusunu

müəyyənləşdiririk. Onların 2-3 şəxsə satılması ilə bağlı problemlərin aradan qaldırılması üçün təxminən 1 il bundan qabaq hörmətli Əli müəllim tərəfindən son dərəcə əhəmiyyətli, çox vacib hüquqi bir addım atıldı. Şirkətlə vətəndaş arasında münasibətləri hüquqiləşdirən ilkin reyestrdən keçmə prosesi yaşandı. Mən elə hesab edirəm ki, Avropadakı praktikanı burada bərqərar etmək lazımdır. Start vəziyyətində, ilk təməl qoyulan anda vətəndaşlar hələ 10-cu mərtəbədəki evini bəri başdan alırsa, ödənişlər edirsə, mülkiyyət hüququ da elə bəri başdan tanınsın, sonrakı əməliyyatlar da bunun üzərindən getsin. Sonra dediyimiz o 2-3 nəfərə satılma problemlərini də yaşamayacağıq.

Mən bu sənədə səs verəcəyəm. Əminəm ki, müvafiq komitə bu məsələləri nəzərə alacaq və gələcəkdə məcəlləni dəyişdirəcək. Sağ olun.

**Sədrlik edən.** Sağ olun. Fərəc Quliyev.

**F.Quliyev.** Sağ olun, hörmətli Ziyafət müəllim. Mən srağagün Qaraçuxur qəsəbəsində 154 mənzildə məskunlaşmış ailələrin 54 nəfər təmsilçisini qəbul etdim. Bütün bina qaçqınlar və köçkünlər tərəfindən zəbt olunubdur. Təbii ki, bu da onların iradəsindən asılı deyil, o vaxt köçkün düşüblər. İnsanların geri qayıtması üçün xahiş edirlər ki, heç olmasa, bu tikintilər olanda, hər kəs başa düşür ki, son vaxtlarda ölkədə tikintilər gedir, köçkünlər yataqxanalardan aparılır, yerləşdirilir və sair. Açığı, onlar yolları bağlamaq istəyirdilər. Mən, təbii ki, onlarla söhbət etdim, dedim, bunun mənası yoxdur, sadəcə, bunun yolunu tapmaq lazımdır. İnsanlar qayıtdılar, amma təklif edirlər ki, heç olmasa, bizə ya kompensasiya verilsin, özümüz mənzil alaq, ya da mənzillər köçkünlərə veriləndə, tutaq ki, yataqxanalar kimsənin deyil, yataqxanalardan sonra da köçmək olar. Əvvəl mənzillərdə olanları digər

mənzillərə köçürsünlər ki, biz də öz yerimizə gedək. Aralarında hərbçilər, təqaüdçülər var. 25 ildir, kənarda oturublar, 3-5 il də, deyək ki, ömürləri qalıb. Düzdür, ömrü Allah verir, hər halda bu təklif ilə çıxış edirlər. Doğrudur, bunun predmet olaraq bu məsələyə aidiyyəti yoxdur.

Ziyafət müəllim, mən təşəkkür edirəm, şərait yaratdınız ki, fikrimi deyim. Amma hər halda 154 ailə çıxıb, orada başqa bir formada etiraz etmək əvəzinə, təklif verirsə, biz də bu təklifləri gərək dəyərləndirək, nəzərə alaq. Hesab edirəm ki, müvafiq strukturlar da bizim stenoqramlardan, yaxud bizim fikirlərimizdən xəbərdar olanda bu məsələni də bir az nəzərə alarlar. İlk olaraq bu tipli ailələrin mənzillərində olan köçkünlər yerləşdirilsin ki, insanlar mənzillərinə qayıtsınlar və narazılıqlar olmasın. Onsuz da dövlət bu mənzilləri tikir. Onlar kompromis olaraq həmçinin təklif edirlər ki, onlara kompensasiya verilsin, özləri mənzil tiksinlər. Gözləmə imkanları məhduddur. Təşəkkür edirəm.

**Sədrlik edən.** Sağ olun. Araz Əlizadə.

**A.Əlizadə.** Çox sağ olun, Ziyafət müəllim. Bir məsələ məni çox narahat edir. Bakı şəhərində onlarca bina var ki, tikilib, istifadəyə verilib, insanlar orada yaşayırlar, lakin bir çoxlarına sərəncam verilmir və onlar çıxarış ala bilmirlər, öz mülkiyyət hüququna sahib ola bilmirlər. Çox qəribədir, həmin binalarla bağlı deyirlər ki, guya o binalar qəbul olunmayıb. Amma həmin binalarda ailələr var, müəyyən ödənişlər ediblər ki, onların çıxarışları var, digərlərinin isə çıxarışları yoxdur və onlara deyirlər ki, sən də get, ver. Mənə elə gəlir ki, bunu qanunla sahmana salmalıyıq. Əgər binada insanlar yaşayırsa, bəzilərində 5 il, 10 il yaşayırlar, onların hamısına çıxarış, sərəncam verilməlidir. Çox sağ olun.

**Sədrlik edən.** Sağ olun. Araz müəllim, Siz yenə yazılmısınız?

**Yerdən.** *(Eşidilmir.)*

**Sədrlik edən.** Burada adınız var. Əgər başqa çıxış eləmək istəyən yoxdursa, xahiş edirəm, qanun layihəsinə münasibət bildirin.

| **Səsvermənin nəticələri** | (saat 13.25 dəq.) |
|---|---|
| Lehinə | 84 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 84 |
| Nəticə: Qəbul edildi | |

Qəbul edildi, sağ olun.

Qanun layihəsi ikinci oxunuşda müzakirə olunduğuna görə, xahiş edirəm, qanun layihəsinə bütövlükdə də münasibət bildirək.

| **Səsvermənin nəticələri** | (saat 13.25 dəq.) |
|---|---|
| Lehinə | 89 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 90 |
| Nəticə: Qəbul edildi | |

Qəbul edildi, sağ olun.

Növbəti məsələ Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında qanun layihəsidir. Əli müəllim, buyurun.

**Ə.Hüseynli.** Ziyafət müəllim, məlumat verdim ki,

Mənzil Məcəlləsinin tələbindən irəli gələrək İnzibati Xətalar Məcəlləsində məsuliyyət yaradıldı.

**Sədrlik edən.** Aydındır. Çox sağ olun. Buyurun, xahiş edirəm, qanun layihəsini əsas kimi qəbul edək.

| **Səsvermənin nəticələri** | (saat 13.26 dəq.) |
|---|---|
| Lehinə | 87 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 87 |
| Nəticə: Qəbul edildi | |

Qəbul edildi, sağ olun.

Qanun layihəsi ilə bağlı çıxış eləmək istəyən var? Yoxdursa, xahiş edirəm, qanun layihəsinə münasibət bildirək.

| **Səsvermənin nəticələri** | (saat 13.27 dəq.) |
|---|---|
| Lehinə | 84 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 84 |
| Nəticə: Qəbul edildi | |

Qəbul edildi, sağ olun.

Xahiş edirəm, qanun layihəsinə bütövlükdə münasibət bildirək.

| **Səsvermənin nəticələri** | (saat 13.27 dəq.) |
|---|---|
| Lehinə | 87 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |

| | |
|---|---|
| Səs vermədi | 0 |
| İştirak edir | 87 |
| Nəticə: Qəbul edildi | |

Qəbul edildi, sağ olun.

"Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə qanun layihəsi, üçüncü oxunuşdur. Əli müəllim, buyurun.

**Ə.Hüseynli.** Çox sağ olun, hörmətli Ziyafət müəllim. Bu məsələ uyğunlaşdırma xarakteri daşıyır. Belə ki, "Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında" Qanun siyasi partiyalar və həmkarlar ittifaqı haqqında qanunlara uyğunlaşdırılır. Ona görə təkliflər olmamışdır. Səsə qoyulmasını xahiş edirəm.

**Sədrlik edən.** Sağ olun. Buyurun, xahiş edirəm, qanun layihəsini əsas kimi qəbul edək.

| **Səsvermənin nəticələri** | (saat 13.28 dəq.) |
|---|---|
| Lehinə | 89 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 89 |
| Nəticə: Qəbul edildi | |

Qəbul edildi, sağ olun.

Qanun layihəsinə bütövlükdə münasibət bildirək.

| **Səsvermənin nəticələri** | (saat 13.29 dəq.) |
|---|---|
| Lehinə | 89 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |

| | |
|---|---|
| Səs vermədi | 1 |
| İştirak edir | 90 |
| Nəticə: Qəbul edildi | |

Qəbul edildi, sağ olun.

Növbəti məsələ Azərbaycan Respublikasının Seçki Məcəlləsində dəyişiklik edilməsi barədə qanun layihəsi, ikinci oxunuşdur. Əli müəllim, buyurun.

**Ə.Hüseynli.** Çox sağ olun, hörmətli Ziyafət müəllim. Məlumat üçün qeyd etmək istəyirəm ki, bu layihə Seçki Məcəlləsinin Konstitusiyaya uyğunlaşdırılması mənasını daşıyır. Bilirsiniz ki, 2016-cı ildə keçirilən referendumda Prezidentin səlahiyyət müddəti 7 ilə qədər uzadıldı və məhz buna görə də növbədənkənar Prezident seçkiləri ilə seçilmiş Prezidentin səlahiyyət müddəti artıq oktyabr ayında deyil, 7 il əvvəl Prezidentin seçildiyi ayda bitir.

İkincisi, Seçki Məcəlləsində iki fərqli anlayış – seçkilərin elan olunması və təyin olunması da Konstitusiyaya uyğunlaşdırıldı. Sırf uyğunlaşdırma xarakteri daşıyır. Ona görə birinci oxunuşda həmkarlarım səs vermişdi, ikinci oxunuşda da səs verməyinizi xahiş edirəm.

**Sədrlik edən.** Sağ olun. Buyurun, xahiş edirəm, qanun layihəsini əsas kimi qəbul edək.

| **Səsvermənin nəticələri** | (saat 13.31 dəq.) |
|---|---|
| Lehinə | 91 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 91 |
| Nəticə: Qəbul edildi | |

Qəbul edildi, sağ olun.

Qanun layihəsi ilə bağlı çıxış eləmək istəyən var?

**Yerdən.** *(Eşidilmir.)*

**Sədrlik edən.** Xahiş edirəm, qanun layihəsinə münasibət bildirin.

| **Səsvermənin nəticələri** | (saat 13.31 dəq.) |
|---|---|
| Lehinə | 88 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 88 |
| Nəticə: Qəbul edildi | |

Qəbul edildi, sağ olun.

Rica edirəm, qanun layihəsinə bütövlükdə münasibət bildirin.

| **Səsvermənin nəticələri** | (saat 13.32 dəq.) |
|---|---|
| Lehinə | 86 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 86 |
| Nəticə: Qəbul edildi | |

Qəbul edildi, sağ olun.

Növbəti məsələ Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi barədə qanun layihəsi, ikinci oxunuşdur. Əli müəllim, buyurun.

**Ə.Hüseynli.** Çox sağ olun, hörmətli Ziyafət müəllim. Bu layihənin meydana çıxması, təbii ki, "Dərman vasitələri haqqında" Qanunun tələbləridir. Belə ki, həmin əsas qanun tələb edirdi ki, dərman vasitələrinin saxlanması, da-

şınması, geri çağırılması, məhv edilməsi və bu qaydaların pozulmasına görə məsuliyyət nəzərdə tutulsun. Qanunda həmçinin aptek təşkilatlarına dair tələblərin pozulmasına görə məsuliyyətin nəzərdə tutulması əks olunmuşdu. Cənab Prezidentin qanunvericilik təşəbbüsü ilə hər iki məsələ həllini tapır. İnzibati qaydada kifayət qədər ciddi sanksiyalar tətbiq oluna bilər. Ona görə həmkarlardan səs vermələrini xahiş edirəm.

**Sədrlik edən.** Sağ olun, Əli müəllim. Xahiş edirəm, qanun layihəsinə əsas kimi münasibət bildirək.

| **Səsvermənin nəticələri** | (saat 13.33 dəq.) |
|---|---|
| Lehinə | 89 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 89 |
| Nəticə: Qəbul edildi | |

Qəbul edildi, sağ olun.

Qanun layihəsi ilə bağlı çıxış eləmək, fikir söyləmək istəyən var?

**Yerdən.** *(Eşidilmir.)*

**Sədrlik edən.** Xahiş edirəm, qanun layihəsinə münasibət bildirin.

| **Səsvermənin nəticələri** | (saat 13.34 dəq.) |
|---|---|
| Lehinə | 88 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 2 |
| İştirak edir | 90 |
| Nəticə: Qəbul edildi | |

Qəbul edildi, sağ olun.

Xahiş edirəm, qanun layihəsinə bütövlükdə münasibət bildirin.

| **Səsvermənin nəticələri** | (saat 13.34 dəq.) |
|---|---|
| Lehinə | 88 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 88 |
| Nəticə: Qəbul edildi | |

Qəbul edildi, sağ olun.

Növbəti məsələ "Avtomobil nəqliyyatı haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə qanun layihəsidir. Ziyad müəllim, buyurun.

**Z.Səmədzadə.** Hörmətli Ziyafət müəllim, hörmətli millət vəkilləri! "Avtomobil nəqliyyatı haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi "Yol hərəkəti haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikasının 2018-ci il 23 fevral tarixli Qanununun icrası ilə əlaqədar hazırlanmışdır. "Yol hərəkəti haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə" adıçəkilən Qanun ilə beynəlxalq və ölkədaxili, şəhərlərarası və rayonlararası sərnişin və yük daşımalarını təşkil edən və yerinə yetirən fiziki və hüquqi şəxslərin bu sahədə vəzifələri müəyyən edilmişdir. Həmin qanuna əsasən beynəlxalq və ölkədaxili sərnişin və yük daşımalarını təşkil edən və yerinə yetirən fiziki və ya hüquqi şəxslər həmin daşımaları həyata keçirən yük avtomobil-

lərini və ümumi istifadədə olan nəqliyyat vasitələrini taxoqrafla təchiz etməlidirlər. Keçən dəfə bu barədə kifayət qədər danışıldı. Ona görə millət vəkillərindən xahiş edərdim ki, bu məsələyə münasibət bildirsinlər.

**Sədrlik edən.** Sağ olun. Qanun layihəsinin əsas kimi qəbul olunmasını xahiş edirəm.

| **Səsvermənin nəticələri** | (saat 13.36 dəq.) |
|---|---|
| Lehinə | 91 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 91 |
| Nəticə: Qəbul edildi | |

Qəbul edildi, sağ olun.

Qanun layihəsi ilə bağlı çıxış eləmək istəyən var? Buyurun, Qüdrət Həsənquliyev.

**Q.Həsənquliyev.** Təşəkkür edirəm, Ziyafət müəllim. Hörmətli həmkarlar, media nümayəndələri! Mən qısa olaraq 57.1-ci maddəyə bir təklif vermək istəyirəm. Burada qeyd olunur ki, taxoqraf cihazlarına müdaxilə etmək olmaz və buna görə məsuliyyət yaranır. Hesab edirəm, əlavə olunsun ki, "başqasının taxoqraf cihazları üçün verilən kartlardan istifadəyə görə, yaxud öz taxoqraf kartlarını başqasına verməyə görə də cinayət məsuliyyəti yaranır". Mən bunu onunla əsaslandırıram ki, artıq inkişaf etmiş Avropa ölkələrində, sivil dünyada taxoqraf cihazlarından geniş istifadə edilir. Əlbəttə, çox sevindirici haldır ki, artıq Azərbaycanda da bunun tətbiqinə başlanılır. Bir çox hallarda sürücülər fasilə verməmək üçün, yaxud avtomobili 8 saatdan artıq idarə etmək üçün öz sürücü yoldaş-

larının kartlarını alırlar və öz kartlarını çıxarıb digər kartları həmin cihaza daxil edirlər. Hesab edirəm ki, bunun qarşısını almaq üçün başqasının taxoqraf cihazlarının kartlarından istifadə ciddi məsuliyyət yaratmalıdır. Diqqətinizə görə sağ olun.

**Sədrlik edən.** Sağ olun. Başqa çıxış eləmək istəyən var?

**Yerdən.** *(Eşidilmir.)*

**Sədrlik edən.** Hörmətli həmkarlar, qanun layihəsində cəmi 3 maddəyə dəyişiklik edildiyinə görə mən o maddələri ayırmaq istəmirəm. Ona görə etiraz etmirsinizsə, elə birlikdə səsə qoyaq. Xahiş edirəm, qanun layihəsinə münasibət bildirək.

| **Səsvermənin nəticələri** | (saat 13.38 dəq.) |
|---|---|
| Lehinə | 93 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 93 |
| Nəticə: Qəbul edildi | |

Qəbul edildi, sağ olun.

Xahiş edirəm, qanun layihəsinə bütövlükdə münasibət bildirək.

| **Səsvermənin nəticələri** | (saat 13.39 dəq.) |
|---|---|
| Lehinə | 89 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 90 |
| Nəticə: Qəbul edildi | |

Qəbul edildi, sağ olun.

Nəhayət, bugünkü gündəliyimizin sonuncu məsələsi "Sığorta fəaliyyəti haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə qanun layihəsi, ikinci oxunuşdur. Ziyad müəllim, buyurun.

**Z.Səmədzadə.** Hörmətli Ziyafət müəllim, hörmətli millət vəkilləri, Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 6 dekabr tarixli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında maliyyə xidmətlərinin inkişafına dair Strateji Yol Xəritəsi"nin və eyni zamanda, Azərbaycan Respublikasının Maliyyə Bazarlarına Nəzarət Palatasının 2017-ci il 23 avqust tarixli qərarı ilə təsdiq edilmiş "Sığorta sektorunun tənzimlənməsi və nəzarəti üzrə 2017–2019-cu illəri əhatə edən Tədbirlər Planı"nda müvəqqəti inzibatçı institutun yaradılması tədbiri müəyyən edilmişdir. Bu tədbir dünyada bu sahədə sığorta sektorunda olan problemlər ilə mübarizə üzrə ən qabaqcıl və mütərəqqi təcrübədir. Bununla əlaqədar olaraq qanun layihəsinə müəyyən dəyişikliklər etmişik. Keçən dəfə mən bu barədə Milli Məclisin plenar iclasında millət vəkillərinə məlumat verdim. Qanun layihəsinə müsbət münasibət bildirməyinizi xahiş edirəm.

**Sədrlik edən.** Sağ olun, Ziyad müəllim. Buyurun, xahiş edirəm, qanun layihəsini əsas kimi qəbul edək.

| **Səsvermənin nəticələri** | (saat 13.41 dəq.) |
|---|---|
| Lehinə | 94 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 2 |
| İştirak edir | 96 |

Nəticə: Qəbul edildi

Qəbul edildi, sağ olun.
Başqa çıxış eləmək istəyən var?
**Yerdən.** *(Eşidilmir.)*
**Sədrlik edən.** Hörmətli deputat həmkarlar, burada bu qanun layihəsində bir neçə maddəyə dəyişikliklər edilir. Təklif edirəm ki, biz 96-1-ci maddədən 96.9-cu maddəyə qədər münasibətimizi bildirək, o biri maddələri ayrıca səsə qoyarıq. Buyurun, 96.1–96.9-cu maddələrə münasibət bildirək.

| **Səsvermənin nəticələri** | (saat 13.42 dəq.) |
|---|---|
| Lehinə | 93 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 94 |
| Nəticə: Qəbul edildi | |

Qəbul edildi, sağ olun.
97.3.7, 97.3.8, 102.2.10, 102.2.11, 106.1.8-ci maddə çıxarılır, 107.1.7-1, 108.8, 109.1 və 112.1.2-ci maddələrə münasibət bildirməyinizi xahiş edirəm.

| **Səsvermənin nəticələri** | (saat 13.43 dəq.) |
|---|---|
| Lehinə | 95 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 95 |
| Nəticə: Qəbul edildi | |

Qəbul edildi, sağ olun.
Xahiş edirəm, qanun layihəsinə bütövlükdə münasibət bildirin.

| **Səsvermənin nəticələri** | (saat 13.44 dəq.) |
| --- | --- |
| Lehinə | 94 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 94 |
| Nəticə: Qəbul edildi | |

Qəbul edildi, sağ olun. Bununla da iclasımız sona çatdı.